

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı




№ 04 - aprel 2020



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının ümummilli lideri**



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ

hüquq jurnalı

№ 04 - aprel 2020



TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**





**Qaynar xətt**
**539-76-75**


# Mündəricat



## RƏSMİ MƏLUMAT


Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib ...........................4

Ölkə Prezidentinin növbəti humanist addımı ......................6




## ƏDLİYYƏ XƏBƏRLƏRİ


Milli Məclisdə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi dinlənilib ..........7

"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətlə bağlı illik məruzə" (2019-cu il üzrə) (Ədliyyə nazirinin müavini Vilayət Zahirovun Azərbaycan Respublikasının Milli Məclisində çıxışı) ..........7

Ədliyyə Nazirliyində videokonfrans formatında kollegiya iclası keçirilib ..........12

Ədliyyə naziri tərəfindən bölgə vətəndaşlarının videoqəbulu keçirilib..........14

Ədliyyə Nazirliyində siyasi partiyaların sədrləri ilə görüş ..........15

"Pandemiya dövründə ədliyyəyə əlçatanlıq" mövzusunda videoəlaqə vasitəsilə onlayn mətbuat konfransı keçirilib ..........16

Ədliyyə Nazirliyi 1600 tənha yaşlıya ərzaq yardımı edib ..........17

Ədliyyə və məhkəmə fəaliyyətində innovasiyaların tətbiqi genişlənir ..........18

Ədliyyə Akademiyasında tədris distant formada davam etdirilir ..........20


## MƏQALƏ


Ləzifə Məmmədova. Sahibkarlığın inkişafında bələdiyyələrin rolu ..........21

# YENİ QANUNLAR, FƏRMANLAR...

"Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23-cü maddəsinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2020-ci il 24 aprel tarixli Qərarı ..............................................26

"Qanunçuluq" jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 1856 Tiraj:1100 ədəd

# Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib

**Aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib.**

Dövlət başçısı müşavirədə giriş nitqi ilə çıxış edərək 2020-ci ilin yanvar-fevral aylarında iqtisadi-sosial göstəricilərin çox müsbət olduğunu, mart ayında dünyada koronavirus infeksiyasının yayılması ilə əlaqədar müəyyən qədər tənəzzülə uğradığını bildirib, ölkəmizdə bu ümumbəşəri sosial bəla ilə mübarizədə atılan addımlardan bəhs edib.

Müşavirədə hökumətə - Baş Nazirə, Maliyyə nazirinə və İqtisadiyyat nazirinə dövlət xərclərinə yenidən baxılması, prioritet təşkil etməyən xərclərin ixtisar edilməsi və vəsaitin xərclənməsinə çox ciddi nəzarət mexanizminin tətbiq olunması, həmçinin yeni gəlir mənbələrinin aşkar edilməsi və qısa müddət ərzində yeni təkliflərin hazırlanıb təqdim olunması tapşırılıb, bəzi hallarda dövlət təşkilatlarının və şirkətlərinin cari xərclərinin şişirdilməsinə toxunularaq bu sahəyə çox ciddi diqqət göstərilməsi və şəffaflığın tam təmin olunması istiqamətində əlavə addımların atılmasının zəruriliyi vurğulanıb.



Qeyd olunub ki, işsizlərlə bağlı - işini itirənlər artıq öz adlarını kütləvi surətdə qeydiyyata salırlar. Bu məsələyə çox diqqətlə yanaşılmalı, sui-istifadəyə yol verilməməlidir. Bu, həm vətəndaşlara aiddir, həm də dövlət orqanlarına. Son günlər müraciətlərin dinamikasının çox sürətli olması müəyyən şübhələr doğurur. Dövlət orqanlarının kifayət qədər imkanı var ki, bu məsələ araşdırılsın və ehtiyacı olan insanlar dövlətdən yardım alsınlar.

Ölkə Prezidenti uğurlu inkişaf üçün iqtisadiyyatın dayanıqlığına nail olmaqdan ötrü mütləq bütün sahələrdə - həm iqtisadi-sosial, həm siyasi sahədə islahatların aparılmasını, struktur islahatlarının davam etdirilməsi məsələlərinə yenə də baxılmasını diqqətə çatdırıb, bütün hakimiyyət qollarında islahatların aparılmasında məqsədin idarəetmə mexanizminin daha da təkmilləşməsi, gəncləşmə siyasətinin aparılması, peşəkar kadrların önəmli vəzifələrə gətirilməsi olduğunu vurğulayıb, Prezident Administrasiyasında, Nazirlər Kabinetində və Milli Məclisdə aparılan ciddi islahatlara, parlament seçkilərindən sonra onun tərkibinin böyük dərəcədə, rəhbər orqanlarının isə tam dəyişdirilməsinə və tarixdə ilk dəfə olaraq, müxalifət nümayəndəsinin Milli Məclisin Sədrinin müavini vəzifəsinə seçilməsinə toxunub.

Eyni zamanda, siyasi sistemin təkmilləşdirilməsi üzrə atılan addımlardan bəhs olunarkən bildirilib ki, əsas məqsəd elə siyasi sistem yaratmaqdır ki, fərqli baxışlardan asılı olmayaraq, hər bir siyasi

qüvvə üçün bir amal müqəddəs olsun, o da dövlətçilik, müstəqillik, azadlıq, rifah və inkişafdır. Belə olan halda həm siyasi mübarizədə işlər müsbət istiqamətdə gedəcək, eyni zamanda, ölkədə mövcud olan problemlər daha tezliklə həll olunacaq. Çünki müxalifət nümayəndələri bəzən iqtidar nümayəndələrinin görmədiyi qüsurları görürlər, onları dilə gətirirlər, onları diqqətə çatdırırlar və bu, çox müsbət haldır.

Bütün siyasi qüvvələr üçün bir amal, bir məsələ toxunulmaz olmalıdır, bu da bizim müstəqilliyimiz, dövlətçiliyimiz və dövlət maraqlarıdır. Ölkə rəhbəri qeyd edib ki, hakimiyyət tərəfindən atılan addımlar, siyasi dialoqun başlanması və müxalifət partiyaları tərəfindən buna müsbət reaksiya verilməsi müstəqillik dövründə tam yeni vəziyyətin yaradılmasına gətirib çıxarır.

Dövlət başçısı bu prosesin hələ təzə-təzə başladığını bildirib və onun sürətlə getməsini arzulayıb, müxalifət partiyalarının hamısının dialoq təklifinə müsbət cavab verməsindən və artıq siyasi dialoqun başlamasından məmnunluğunu ifadə edib.

Azərbaycan Prezidenti bu ilin əvvəlindən beynəlxalq müstəvidə də fəaliyyətin uğurlu olduğuna diqqət çəkərək Davos Forumunda və Münxen Konfransında iştirakını, bunun çox müsbət nəticələrə gətirib çıxardığını, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin canlı efirdə geniş auditoriyaya çatdırılması imkanlarının yarandığını vurğulayıb, indiki pandemiya şəraitində Azərbaycanın təşəbbüsü ilə videokonfrans şəklində keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fövqəladə Zirvə görüşünü qeyd edib.



İqtisadi nailiyyətlərdən söz açarkən ölkə Prezidenti yanvar-fevral aylarının göstəricilərini səsləndirib, ümumi daxili məhsulun 3 faizə yaxın, qeyri-neft sektorunda təxminən 7 faizə yaxın artımın olduğunu, üç ayda isə ümumi daxili məhsulun 1,1 faiz, qeyri-neft sektorunda isə 3 faizdən bir qədər çox artdığını bildirib, inflyasiyanın 3 faiz səviyyəsində, əhalinin gəlirlərinin 7 faizə yaxın olduğunu, üç ayda vergi və gömrük orqanlarının büdcəmizə proqnozdan əlavə 310 milyon manatdan çox vəsaitin daxil etdiyini diqqətə çatdırıb.

Həmçinin, orta aylıq əməkhaqqının 28 faiz, orta pensiyanın təqribən 27 faiz artdığı, bu il bütün sosial infrastruktur obyektlərinin tikintisinin də ixtisarsız icra ediləcəyi, minimum 7 min köçkün ailəsinin yeni mənzillərə köçürüləcəyi və minimum 1500 şəhid ailəsinə yeni mənzillər veriləcəyi bildirilib.

Dövlət başçısı bank sektorunda və makroiqtisadi sahədə görülmüş işləri müsbət qiymətləndirərək bu sahədə vəziyyətin qorunmasının, banklar tərəfindən indiki şəraitdə biznesə daha böyük dəstək verilməsinin vacibliyini vurğulayıb, aprel-may aylarında ikinci yarımillikdə nəzərdə tutulan investisiya proqramlarının təhlilinin və yenidən tərtib edilməsinin zəruriliyini, bu məsələ ilə ciddi məşğul olunmasını, özəl sərmayənin təşviqi istiqamətində əlavə addımların atılmasını qeyd edib, qeyri-formal məşğulluğun qarşısının alınması üzrə tədbirlərin davam etdirilməsini, ödənişli ictimai işlərinin yaradılmasını tapşırıb. Həssas təbəqənin qorunması ilə bağlı bildirib ki, kimin nəyə gücü, imkanı çatırsa kimsəsiz insanlara, ahıl insanlara, həssas təbəqədən olan insanlara kömək göstərin.

Prezident İlham Əliyev yekun nitqində digər məsələlərlə bağlı aidiyyəti tapşırıqlarını verib, koronavirus infeksiyasının yayılmasına qarşı görülən qəti tədbirlər barədə məlumat verib.

# Ölkə Prezidentinin növbəti humanist addımı

**Dünyada koronavirus (COVİD-19) infeksiyasının yayılması ilə əlaqədar ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə əhalinin sağlamlığının qorunması, qlobal pandemiyanın yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə zəruri preventiv tədbirlər müəyyən edilib, bu məqsədlə xüsusi karantin rejimi elan olunub, virusa yoluxması daha riskli olan yaşı 65-dən yuxarı vətəndaşların sosial izolyasiyasına xüsusi diqqət yetirilib.**

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən insanlara xüsusi qayğı və həssaslıqla müraciətlər edilərək karantin rejiminə ciddi əməl olunması tövsiyə edilib.

Görülən tədbirlər çərçivəsində ölkə Prezidentinin 06.04.2020-ci il tarixli Əfv Sərəncamı ilə yaşı 65-dən yuxarı olan 176 nəfər məhkum cəzalarının çəkilməmiş hissəsindən azad olunub. İndiki pandemiya şəraitində virusa yoluxması daha ağır nəticələnə bilən həmin şəxslərin azadlığa buraxılması onların həyatlarının təhlükəsizliyi və sağlamlıqlarının qorunması, xüsusilə ailə qayğısı ilə əhatə olunmaları baxımından mühüm humanist addımdır.

Ölkə ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanan bu Sərəncamın təxirəsalınmadan icrası məqsədilə Ədliyyə Nazirliyinin, o cümlədən Penitensiar xidmətin aidiyyəti məsul işçiləri azad olunan məhkumların saxlanıldığı cəzaçəkmə müəssisələrində olub, operativ zəruri sənədləşdirmə işləri aparılaraq çoxsaylı KİV və ictimaiyyət nümayəndələrinin iştirakı ilə bu humanist qərarın vaxtında və tam icrası təmin edilib.







Qeyd olunub ki, məhkumların təhlükəsizliyi və sağlamlıqları diqqətdə saxlanılaraq, penitensiar müəssisələrdə ardıcıl, kompleks tibbi-profilaktik tədbirlər görülür, məhkumların gündəlik termometriyası, səhhətlərində hər hansı problemi olan şəxslərin dərhal müayinəsi keçirilir və zəruri müalicəsi aparılır.

Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına əsasən pandemiyanın respublikamızın müxtəlif bölgələrində yayılmasının müşahidə olunması və əfv edilən şəxslərin yaşayış yerlərinin 40-dək rayonu əhatə etməsi nəzərə alınaraq, onlar doğmalarının yanına getməzdən əvvəl ailə üzvlərinin də sağlamlıq durumu araşdırılacaqdır. Bu məqsədlə azad olunan şəxslər iki həftəlik istirahət mərkəzlərinin birinə yerləşdirilib və hər cür şəraitlə, o cümlədən qida və tibbi təminatla təchiz olunublar.

Əfv olunanlar mərhəmətliyinə, insanpərvərliyinə və onlara göstərilən xüsusi qayğıya görə ölkə Prezidentinə minnətdarlıqlarını ifadə edib, dövlət başçısının iradəsi ilə həyata keçirilən qəti tədbirlər nəticəsində xalqımızın bu ümumbəşəri sosial bəladan tezliklə qurtulacağına əminliyini bildiriblər.

Eyni zamanda, dövlətimizin humanist siyasətinin daha bir təzahürü olan məhkumları cəzadan şərti olaraq vaxtından əvvəl azadetmə və daha yüngül rejimli müəssisəyə keçirmə institutunun tətbiqi üzrə tədbirlər davam etdirilir. Bu sahədə şəffaflığın və operativliyin təmin edilməsi məqsədilə yaradılmış Ədliyyə Nazirliyinin müvafiq Komissiyasının rəyi nəzərə alınmaqla məhkəmələrə təqdim olunmuş materiallara təxirəsalınmadan baxılıb və son günlərdə daha 60-a yaxın məhkum vaxtından əvvəl azad olunub.

# Milli Məclisdə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi dinlənilib

**Aprelin 17-də Azərbaycan Respublikası Milli Məclisinin yaz sessiyasının növbəti plenar iclası keçirilib.**

İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirilən müşavirənin bir çox vacib məqamlarına toxunub, dövlət başçısının nitqindən irəli gələn məsələlər barədə danışıb. Sonra plenar iclasda iyirmi dörd məsələdən ibarət gündəlik təsdiqlənib.

Əvvəlcə Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi dinlənilib.

Məruzəni Ədliyyə nazirinin müavini Vilayət Zahirov təqdim edib *(Çıxışın mətni jurnalımızın bu sayında oxuculara təqdim olunur).*



Sonra Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov illik məruzəyə dair fikirlərini açıqlayıb, təkliflərini bildirib. Müzakirələr zamanı deputatlar Musa Quliyev, Sadiq Qurbanov, Elman Nəsirov, Azay Quliyev, Tahir Kərimli, Tahir Rzayev, Azər Badamov, Aydın Mirzəzadə, Fazil Mustafa illik məruzəyə münasibət bildiriblər. Çıxışlarda bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2019-cu ildə gördüyü işlər əsasən müsbət dəyərləndirilib. Bir sıra təkliflər səsləndirilib.

Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev qanunvericiliklə bağlı bəzi məsələlərə aydınlıq gətirib.

Parlamentdə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi nəzərə alınıb.

Daha sonra iclasda gündəlikdəki digər qanun layihələri müzakirə olunub.

# "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətlə bağlı illik məruzə" (2019-cu il üzrə)

## Ədliyyə nazirinin müavini Vilayət Zahirovun Azərbaycan Respublikasının Milli Məclisində çıxışı

Hörmətli xanım sədr!

Hörmətli deputatlar!

İlk növbədə qeyd etmək istəyirəm ki, bu ilin fevral ayında ölkəmizdə keçirilmiş parlament seçkiləri növbəti dəfə azad, demokratik, ədalətli və şəffaf səsvermənin nümunəsi olmuşdur. Gərgin keçən seçki mübarizəsində Azərbaycan Respublikasının Milli Məclisinə seçilmiş millət vəkillərini bu şərəfli ada layiq olmaları münasibətilə təbrik edir, vətənimizin tərəqqisi, ölkəmizin qanunvericilik sisteminin təkmilləşdirilməsi istiqamətindəki dəyərli fəaliyyətlərində uğurlar arzulayıram.

Hörmətli deputatlar!

"Bələdiyyələrin fəaliyyətinə

İnzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə əsasən 2019-cu il üzrə illik məruzə diqqətinizə təqdim olunur:

Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmlənməsinə, hərtərəfli inkişafına yönəlmiş Heydər Əliyev strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilmiş, 2019-cu ildə də ölkəmizdə davamlı sosial-iqtisadi tərəqqi, ictimai-siyasi sabitlik təmin olunmuşdur.

Respublikamızda aparılan islahatlar və düşünülmüş iqtisadi siyasət dünyanın ən mötəbər iqtisadi qurumları tərəfindən yüksək qiymətləndirilmiş, ölkəmiz xarici əlaqələrin genişlənməsi sahəsində sanballı uğurlar qazanmış, mötəbər beynəlxalq forumlara, zirvə görüşlərinə və sammitlərə ev sahibliyi etmiş, dövlətimizin beynəlxalq nüfuzu xeyli artmışdır.

Respublikamızın davamlı sosial-iqtisadi və mədəni inkişafının təmin olunmasında, beynəlxalq əlaqələrinin gücləndirilməsində, milli-mənəvi dəyərlərin təbliğində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti xüsusilə qeyd edilməlidir.

2019-cu il ölkə həyatının bütün sahələrində olduğu kimi, yerli demokratiyanın inkişafında da uğurlu il olmuşdur. Yerli özünüidarəetmənin təşkili və bələdiyyələrin formalaşmasının 20 ilinin tamam olması, eləcə də demokratik, şəffaf, yerli və beynəlxalq müşahidəçilərin iştirakı ilə növbəti bələdiyyə seçkilərinin keçirilməsi ölkəmizin ictimai-siyasi həyatında baş verən mühüm hadisələrdəndir.




Seçkilər nəticəsində 1.597 bələdiyyə üzrə 15.075 bələdiyyə üzvü seçilmişdir. Əvvəlki seçkilərdə olduğu kimi, yeni seçilən bələdiyyə üzvləri sırasında qadınların, gənclərin sayında xeyli artım müşahidə edilmişdir. Belə ki, qadınların sayı 5.847 nəfər (38,8 %), gənclərin sayı isə 6.012 nəfər (39,9 %) olmuşdur. Seçkilər nəticəsində bələdiyyə üzvlərinin tərkibinin yeniləndiyi nəzərə alınaraq qısa müddət ərzində məqsədyönlü hüquqi maarifləndirmə işinin aparılması üçün Ədliyyə Nazirliyi tərəfindən xüsusi tədbirlər planı hazırlanmışdır.

Ötən il yerli özünüidarəetmənin inkişafı məsələləri daim diqqət mərkəzində olmuş, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi üçün bir sıra yeni normativ hüquqi aktlar qəbul edilmişdir.

Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli Qanunu ilə "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş dəyişikliyə əsasən Ədliyyə Nazirliyinin əsas fəaliyyət istiqamətlərindən olan bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və onlara metodoloji yardım göstərilməsinin hüquqi əsası ilk dəfə qanunla təsbit olunmuş, eləcə də bələdiyyə üzvləri və qulluqçularının peşəkarlıq səviyyəsinin artırılması məqsədilə xarici dövlətlərin yerli özünüidarəetmə orqanları, onların assosiasiyaları və ixtisaslaşdırılmış təşkilatları ilə təcrübə mübadiləsinin təşkil edilməsi barədə yeni norma müəyyən olunmuşdur.

Azərbaycan Respublikasının 2019-cu il 27 iyun və 9 iyul tarixli Qanunları ilə "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununa inzibati nəzarətin təkmilləşdirilməsinə yönəlmiş bir sıra zəruri dəyişikliklər edilmişdir. Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı ilə "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin təşkili haqqında" Təlimatda dəyişikliklər edilərək bu Qanuna uyğunlaşdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18

dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın icrası məqsədilə hazırlanmış "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi baxılması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmiş, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi isə razılaşdırma mərhələsindədir.

Hörmətli deputatlar!

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət - bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri tərəfindən ölkə Konstitusiyasına, digər qanunvericilik aktlarının tələblərinə əməl edilməsi və onlar tərəfindən qanunvericiliyin pozulması hallarının qarşısının alınması məqsədi ilə həyata keçirilən fəaliyyətdir.

İl ərzində Ədliyyə Nazirliyində inzibati nəzarət qaydasında baxılması üçün daxil olmuş 80.261 (ötən illə müqayisədə 11 % çox) bələdiyyə aktı, o cümlədən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyində 1.796 akt hüquqi ekspertizadan keçirilmişdir. Nəticədə 77.427 (96,5 %) bələdiyyə aktı qanunvericiliyə uyğun hesab edilmiş, normativ hüquqi aktların tələblərinə zidd olan 2.765 aktın dəyişdirilməsi və ya ləğv edilməsi üçün aidiyyəti bələdiyyələrə təkliflər verilmişdir. Bu təkliflər əsasında bələdiyyələr tərəfindən 1.285 akt ləğv edilmiş, 1.274 akt dəyişdirilmişdir. Göründüyü kimi, təkliflərin mütləq əksəriyyəti bələdiyyələr tərəfindən əsaslı hesab edilərək təmin olunmuş, qanunsuz qərarlar onların özləri tərəfindən ləğv edilmişdir.

Bələdiyyələr tərəfindən təmin olunmayan 19 təklif üzrə məhkəmələrdə iddia qaldırılmış, onlardan 8-i məhkəmə tərəfindən təmin edilmiş, 11 iddia isə hesabat ilinin sonuna məhkəmə icraatında olmuşdur. Bələdiyyə aktlarına inzibati nəzarətin həyata keçirilməsi və müraciətlərə baxılması nəticəsində bütövlükdə, qanunsuz verilmiş 7 min hektardan çox torpaq sahəsinin bələdiyyə mülkiyyətinə və ya sahibliyinə qaytarılması təmin edilmişdir (ötən illə müqayisədə 18,5 % çox).

Həyata keçirilmiş maarifçilik tədbirləri nəticəsində bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana mütləq təqdim olunmalı bələdiyyə aktlarının surətinin vaxtında təqdim edilməməsi və araşdırmaların aparılmasına maneçilik törədilməsi ilə bağlı qanun pozuntularının sayı keçən illə müqayisədə xeyli azalmışdır. 2019-cu il ərzində bələdiyyələrin 131 vəzifəli şəxsi barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 549-cu maddəsinə əsasən inzibati xəta haqqında protokol tərtib edilərək məhkəmələrə göndərilmiş, həmin protokollar üzrə 112 bələdiyyə sədri inzibati məsuliyyətə cəlb edilmişdir.

İnzibati nəzarət icraatı qaydasında aparılmış 24 araşdırmada ciddi hüquq pozuntuları aşkar edildiyindən toplanmış materiallar hüquqi qiymət verilməsi üçün prokurorluq orqanlarına göndərilmişdir. Həmin materiallardan 17-si üzrə cinayət işi başlanılmış, digər materiallar üzrə qanunvericiliyə uyğun qərarlar qəbul edilmişdir. Araşdırmaların təhlili göstərir ki, maliyyə vəsaitlərinin qanunsuz istifadə edilməsi, pul vəsaitlərinin mənimsənilməsi, torpaq sahələrinin real dəyərindən ucuz satılması, habelə bələdiyyə iclasının səlahiyyətlərinə aid olan məsələlərin bələdiyyə sədri tərəfindən təkbaşına həll edilməsi kimi xarakterik qanun pozuntularına yol verilmişdir.

2019-cu ildə vətəndaşların müraciətlərinə baxılması və onların qəbulu daim diqqətdə saxlanılmış, Ədliyyə Nazirliyinə bələdiyyələrin fəaliyyəti ilə bağlı daxil olmuş 3.304 müraciətdən 140-ı təmin və ya qismən təmin edilmişdir.

İnzibati nəzarət zamanı müəyyən edilmiş hüquq pozuntuları və nöqsanların aradan qaldırılması və ya təkrar törədilməsinin qarşısının alınmasına önəm verilərək bələdiyyələrə müxtəlif məsələləri əhatə edən 9.264 tövsiyə göndərilmişdir (ötən illə müqayisədə 55% çox).

Bələdiyyələrin fəaliyyətinin qanunauyğun qurulması üçün metodik kömək göstərilməsi məqsədilə maarifçilik tədbirləri davam etdirilmişdir. Hesabat dövründə ümumilikdə 292 (ötən illə müqayisədə 17,3 % çox) maarifçilik tədbiri olmaqla 271 seminar və təlim, 21 tədris kursu keçirilmiş və bu tədbirlərdə 11.000- dən çox bələdiyyə üzvü və qulluqçusu iştirak etmişdir.

Həmçinin 25 (2018-ci ildə 15) metodik vəsait və tövsiyə hazırlanaraq istifadə üçün bələdiyyələrə göndərilmişdir.

Yerli özünüidarəetmə sahəsində əhalinin informasiya təminatının yaxşılaşdırılması məqsədilə bələdiyyələr barədə məlumatın əldə edilməsinə dair elektron xidmətin təşkilinə başlanılmış, həmçinin nazirliyin saytında "Bələdiyyə fəaliyyəti" bölməsi yenidən işlənilmişdir.

Bələdiyyələrin fəaliyyətinin qanunvericiliyin tələblərinə uyğun təşkilinə kömək edilməsi, eləcə də yerli özünüidarəetmə sahəsində mövcud olan problemlərin həlli istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, yerli özünüidarəetmə orqanlarında kargüzarlıq işinin düzgün təşkili, sənədlərin qanunauyğun qaydada qorunub saxlanılması və arxivləşdirilməsinin əhəmiyyəti nəzərə alınaraq 2019-cu il ərzində 235 bələdiyyədə kargüzarlıq və sənədlərin arxivləşdirilməsi işi öyrənilmiş, bu sahədə mövcud pozuntuların aradan qaldırılması məqsədilə bələdiyyələrə zəruri kömək göstərilmiş, tövsiyələr verilmişdir.

Sahibkarlığın inkişafı, əhalinin məşğulluğunun təmin edilməsi sahəsində bələdiyyələrin fəaliyyətinin aktivləşdirilməsi məqsədilə izah işləri aparılmış, nəticədə bələdiyyələr tərəfindən ilkin olaraq 22 yeni müəssisə təsis edilmiş, fəaliyyətə başlamış 7 müəssisəyə 100-ə yaxın işçi cəlb edilmiş, bu müəssisələrdən yerli büdcələrə mənfəət vergisinin ödənilməsinə başlanılmışdır.

Dövlət büdcəsindən hər il dotasiyaların ayrılması ilə yanaşı, ilk dəfə olaraq 2019-cu ildə 1 milyon manat subvensiya ayrılan Salyan, Göygöl, Mingəçevir və Bakıxanov bələdiyyələrində yerli əhalinin sosial problemlərinin həllinə yönəlmiş layihələrinin icrası nəticəsində 140-dan çox iş yeri açılmış, bələdiyyələr üçün yeni gəlir mənbələri yaradılmışdır.

2019-cu ildə bələdiyyələrin maliyyə imkanlarının yaxşılaşdırılması diqqət mərkəzində olmuşdur. Yerli büdcənin gəlir mənbələrindən olan mədən vergisi, həmçinin mehmanxana, sanatoriya-kurort və turizm xidməti göstərən şəxslərdən ödənişlərin yerli büdcələrə ödənilməsi vəziyyəti təhlil edilmiş və aşkar olunan çatışmazlıqların və qanunsuzluqların aradan qaldırılması üçün tədbirlər həyata keçirilmişdir.

Bələdiyyə əmlakından səmərəli istifadə edilməsinin yerli büdcələrin gəlirlərinin artırılmasında əhəmiyyəti nəzərə alınaraq icarəyə ayrılmış bələdiyyə torpaqlarının məqsədli təyinatına uyğun istifadəsi və icarə haqlarının bazar məzənnələrinə uyğunluğunun təmin edilməsi məsələlərinə diqqət artırılmış, bu istiqamətdə qanunauyğun tədbirlərin görülməsi üçün ayrı-ayrı bələdiyyələrə zəruri kömək göstərilmişdir.

Yerli özünüidarəetmə orqanlarının böyük hissəsinin sosial sığorta ödənişləri üzrə xeyli borclarının yaranması, bu səbəbdən onların bank hesablarına məhdudiyyətlərin qoyulması narahatçılıq doğurduğundan bu sahədə də bələdiyyələrlə iş aparılmış, icra aparatlarının bələdiyyələrin maliyyə imkanlarına və iş həcminə uyğun formalaşdırılması tövsiyə edilmişdir. Bir sıra bələdiyyələr tərəfindən vergi orqanları ilə borcların ödənilməsi qrafiki razılaşdırılaraq hesablarına qoyulmuş məhdudiyyətlər götürülmüş, sosial sığorta borclarının 1 milyon manata yaxın hissədə ödənilməsi təmin edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 04 dekabr 2018-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Qəbiristanlıqların salınması və idarə olunması Qaydaları"nın bələdiyyələr tərəfindən öyrənilməsi və tətbiqinə kömək məqsədilə "Yaddaş Kitabçası" hazırlanaraq bələdiyyələrə göndərilmişdir. Eyni zamanda, bu sahədə mövcud olan problemlərlə bağlı (əksər bələdiyyələrin zəruri texniki avadanlıqlara, internet şəbəkəsinə çıxışa malik olmaması, onlarda kompüter texnologiyası üzrə zəruri biliyə malik kadr çatışmazlığı, qəbiristanlıqların bələdiyyələrə təhvil verilməsi prosesinin başa çatmaması və s.) Nazirlər Kabinetinə müraciət edilmişdir.

Yerli özünüidarəetmə sahəsində Azərbaycan Respublikası Milli Məclisi ilə sıx əlaqələr davam etdirilmiş, nazirliyin nümayəndələri, milli assosiasiyaların təmsilçiləri, bələdiyyələr aidiyyəti komitələrin iclaslarında iştirak edərək müvafiq normativ hüquqi aktların layihələrinin müzakirəsinə qatılmış, rəy və təkliflərini bildirmişlər.

Bələdiyyələrin işinin çevik əlaqələndirilməsi sahəsində bələdiyyələrin milli assosiasiyaları ilə qarşılıqlı əməkdaşlıq davam etdirilmiş, milli assosiasiyaların sədrləri ilə görüşlər keçirilərək bələdiyyələrin qarşılaşdıqları çətinliklərin aradan qaldırılması və digər aktual məsələlərin həlli yolları barədə müzakirələr aparılmışdır.

Yerli özünüidarəetmə sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsinə də xüsusi önəm verilərək 2019-cu ildə də Avropa Şurasının, Avropa İttifaqının aidiyyəti qurumları və başqa beynəlxalq təşkilatlarla, eləcə də xarici dövlətlərin aidiyyəti qurumları ilə Ədliyyə Nazirliyinin əməkdaşlığı davam etdirilmiş, nazirliyin nümayəndələri bu qurumların bir sıra tədbirlərinə qatılmışlar.

Vətəndaş cəmiyyətinin inkişafı, ictimai iştirakçılığın tətbiqinin genişləndirilməsi məsələləri diqqətdə saxlanılaraq qeyri-hökumət təşkilatlarının yerli özünüidarəetmə orqanları ilə sağlam əlaqələrinin genişləndirilməsi məqsədilə vətəndaş cəmiyyəti institutlarının nümayəndələri ilə görüşlər təşkil edilmiş və onlarla yerli özünüidarəetmə sahəsində nazirliyin fəaliyyəti, həyata keçirilən işlər və bu sahədə əməkdaşlıq imkanları müzakirə olunmuşdur.

Qeyd olunduğu kimi ölkəmizdə yerli özünüidarəetmənin, bələdiyyə institutunun inkişafı ilə bağlı ardıcıl tədbirlər həyata keçirilmişdir. Bununla belə qarşıda bu sahədə görüləsi işlər də çoxdur.

Son illər ölkəmizin, xalqımızın həyatında baş verən çox ciddi və müsbət dəyişikliklər, yüksək inkişaf, tərrəqi, xüsusilə altıncı çağırış Milli Məclisin ilk iclasında ölkə prezidenti cənab İlham Əliyevin irəli sürdüyü genişmiqyaslı islahatlar konsepsiyası respublikamızda bütün sahələrdə olduğu kimi yerli özünüidarəetmə orqanlarında da köklü islahatlar aparılması vəzifəsini qarşıya qoyur.

Qarşıda bir sıra tədbirlərin həyata keçirilməsi vəzifəsi durur. Belə ki:

- sosial-iqtisadi problemlərin həllində, vətəndaşların sosial müdafiə məsələlərində, ekoloji, humanitar və sairə proqramların həyata keçirilməsində bələdiyyələrin rolunun artırılması;
- bələdiyyənin fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının təkmilləşdirilməsi;
- bələdiyyələrdə rəqəmsal idarəetmənin tətbiqi;
- müasir informasiya texnologiyalarının nailiyyətlərindən, səmərəli metod və üsullardan, kütləvi informasiya vasitələrindən geniş istifadə etməklə bələdiyyə sədrlərinin, bələdiyyə üzv və qulluqçularının maarifləndirilməsi;
- bələdiyyələrdə kollegial idarəetmə vərdişinin bərqərar olması;
- daha səmərəli idarəçilik mexanizmləri, təşkilati və struktur forması yaradılması məqsədi ilə bələdiyyələrin birləşməsi məsələsinin yenidən nəzərdən keçirilməsi;
- bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin sərhədlərinin müəyyən edilməsi, bununla bağlı yerquruluşu işlərinin yekunlaşdırılması, torpaq üzərində bələdiyyələrin mülkiyyət hüquqlarının daşınmaz əmlakın dövlət reyesterində qeydiyyata alınması işinin başa çatdırılması;
- bələdiyyələrin fəaliyyətinə nəzarət mexanizmlərinə yenidən baxılması və ictimai nəzarətin artırılması;
- bələdiyyələrin yerli icra hakimiyyəti orqanları və digər qurumlarla əməkdaşlığının təkmilləşdirilməsi;
- qanunvericiliyin yaratdığı imkanlardan tam istifadə edərək bələdiyyə büdcəsinin yüksək səviyyədə formalaşdırılması kimi məsələlərin həlli - ölkəmizdə yerli özünüidarəetmənin inkişafına dəyərli töhvə vermiş olar.

Qeyd olunan məsələlər üzrə nazirlikdə təhlillər aparılmış və görüləcək zəruri tədbirlər müəyyənləşdirilmişdir. İnanırıq ki, qarşıda duran bu həlli vacib vəzifələr Milli Məclisin, xüsusilə Regional Məsələlər Komitəsinin və digər aidiyyati dövlət qurumlarının dəstəyi ilə reallaşacaqdır.

Hörmətli deputatlar!

Bələdiyyələr tərəfindən qanunvericiliyin tələblərinə əməl edilməsi məqsədilə həyata keçirilən inzibati nəzarət, eləcə də bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və onlara metodoloji yardım göstərilməsi sahəsində işin səmərəliliyinin artırılması üçün tədbirlər davam etdiriləcəkdir.

Baxmayaraq ki, illik məruzənin təqdimatı koronavirus pandemiyasının bütün dünyada tüğyan etdiyi, ölkəmizdə ciddi karantin rejiminin tətbiq olunduğu həssas dönəmdə keçirilir, mən millət vəkillərini əmin etmək istərdim ki, illik məruzəyə, ölkəmizdə yerli özünüidarəetmənin inkişafına dair səslənən bütün fikirlər, irəli sürülən hər bir təklif nəzərə alınacaq, diqqətlə öyrəniləcək və qanuna müvafiq zəruri tədbirlər görüləcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm!

# Ədliyyə Nazirliyində videokonfrans formatında kollegiya iclası keçirilib



**Mayın 1-də Ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə nazirliyin videokonfrans şəklində kollegiya iclası keçirilib. İclasda qlobal pandemiya şəraitində insanların həyat və sağlamlığının qorunması, habelə iqtisadiyyatın inkişafına mənfi təsirlərin aradan qaldırılması ilə bağlı dövlət başçısının keçirdiyi sosial-iqtisadi müşavirədə və digər dövlət əhəmiyyətli tədbirlərdə verilmiş tapşırıqlardan irəli gələn ədliyyə orqanlarının vəzifələrinin icrası müzakirə olunub.**

Nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın hərtərəfli davamlı inkişafını vurğulayıb, dünya iqtisadiyyatına böyük ziyan vuran COVİD-19 qlobal pandemiyasının ölkəmizə də mənfi təsiri nəzərə alınaraq, onun sosial-iqtisadi sahəyə ciddi fəsadlarının qarşısının alınması və dayanıqlı inkişafın təmin olunması ilə bağlı mühüm addımların atıldığını qeyd edib. Azərbaycanın sosial dövlət olduğunu və siyasətin mərkəzində Azərbaycan vətəndaşının dayandığını bəyan edən ölkə başçısının siyasi iradəsi ilə görülən qəti tədbirlər sayəsində xalqımızın koronavirusdan tezliklə qurtulacağına əminlik ifadə olunub.

Bildirilib ki, dövlət başçısının tapşırığına əsasən yaradılmış Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən koronavirus infeksiyasının yayılmasına qarşı zəruri preventiv işlərin görülməsi, o cümlədən sosial izolyasiya qaydalarının və xüsusi karantin rejiminin tətbiqi, vətəndaşların ölkə Prezidentinin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çağırışlarına qoşularaq bu bəla ilə mübarizədə sosial həmrəylik nümayiş etdirməsi və Koronavirusla Mübarizəyə Dəstək Fondunun təsis olunaraq 113 milyon manatdan çox ianələrin edilməsi bu istiqamətdə həyata keçirilən tədbirlərə əlavə dəstəkdir. Eyni zamanda, dəyəri 3 milyard manatı ötən geniş sosial-iqtisadi dəstək paketinin qəbul olunması COVID-19 pandemiyasının iqtisadiyyata mənfi təsirinin azaldılmasına və əhalinin sosial rifahının qorunmasına xidmət edir.

Kollegiyada ölkə başçısının iqtisadiyyatın davamlı inkişafına nail olmaq üçün bütün sahələrdə islahatların aparılması, idarəetmə mexanizminin təkmilləşdirilməsi məqsədilə struktur və kadr islahatlarının, gəncləşmə siyasətinin davam etdirilməsi, neqativ hallara qarşı bundan sonra da ciddi mübarizə aparılması, həmçinin, dövlət xərclərinə yenidən baxılmaqla vəsaitlərin qənaətlə xərclənməsi, bu sahədə şəffaflığın tam təmin olunması, bank sektoru tərəfindən iqtisadi inkişafa böyük dəstək verilməsinin təmin olunması, karantin rejiminə ciddi əməl edilməsi ilə bağlı tapşırıqları diqqətə çatdırılıb.

Qeyd olunub ki, Ədliyyə Nazirliyi tərəfindən koronavirusun qarşısının alınması üzrə mütəşəkkil tədbirlər görülüb, o cümlədən ədliyyə qurumlarında və məhkəmələrdə davamlı dezinfeksiya, profilaktik və digər preventiv iş-

lər aparılıb, vətəndaşların müraciətləri və qəbulu işi, əhaliyə göstərilən ədliyyə xidmətləri elektron qaydada təşkil edilib.

Bu məqsədlə pandemiya şəraitində vətəndaşların məhkəmə və ədliyyə orqanlarına əlçatanlığının asanlaşdırılması məqsədilə müasir innovasiyaların tətbiqi genişləndirilib, o cümlədən məhkəmə qərarlarının icrası üzrə borcun və digər ödənişlərin onlayn qaydada və terminallar vasitəsilə həyata keçirilməsi və borcun ödənilməsi ilə ölkədən getmək hüququna məhdudiyyətin avtomatik qaydada dərhal aradan qaldırılması imkanı yaradılıb. Həmçinin, müasir İKT-lərin köməyi ilə valideynlik hüququndan istifadə - uşaqla ünsiyyətə dair məhkəmə qərarlarının icrası video-əlaqə vasitəsilə təmin edilir.

Bundan əlavə, nəqliyyat vasitələrinə sərəncam verilməsinə dair etibarnamələrin elektron qaydada videoyazı vasitəsilə təsdiq edilməsi mobil xidməti istifadəyə verilib. Həmçinin, "Elektron məhkəmə" informasiya sistemi çərçivəsində xüsusi proqram vasitəsilə məhkəmə proseslərinin videokonfrans şəkildə keçirilməsi təşkil edilib. Bu günlərdə həmin innovasiyalar barədə ictimaiyyət üçün geniş təqdimatlar keçirilib.

Dövlət başçısının humanist siyasətinin təzahürü olaraq aprelin 6-da imzaladığı virusa yoluxması daha riskli olan yaşı 65-dən yuxarı 176 nəfər məhkumun əfv olunması barədə Sərəncamı nazirlik tərəfindən mütəşəkkil icra edilib.

Həmçinin, məhkumların sağlamlığına, tibb, dərman və digər təminatlarına monitorinqlər aparılmaqla gündəlik nəzarət olunub, davamlı xarakter alan cəzadan şərti olaraq vaxtından əvvəl azadetmə və daha yüngül rejimli müəssisəyə keçirmə institutunun tətbiqi intensivləşib.

Eyni zamanda, ədliyyə işçiləri və hakimlər ölkə başçısının təşəbbüsünə qoşularaq Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələr edib, karantin rejimi dövründə həssas əhali qruplarına dövlət qayğısının göstərilməsi çərçivəsində xüsusi qayğıya ehtiyacı olan ahıl və tənha vətəndaşlara ərzaq yardımı olunub, həmçinin işsiz şəxslərə müavinətlərin verilməsi ilə bağlı əhalinin dövlət reyestri üzrə çoxsaylı fərdi məlumatların emal olunaraq aidiyyəti üzrə vaxtında təqdim olunması təmin edilib.

Nazir sosial-iqtisadi müşavirədə və digər dövlət əhəmiyyətli tədbirlərdə dövlət başçısının tapşırıqlarından irəli gələn vəzifələrin vaxtında və dürüst icrasının təmin olunmasını, o cümlədən qlobal pandemiyaya qarşı tibbi və profilaktik tədbirlərin gücləndirilməsini, karantin rejiminə dönmədən əməl olunmasını diqqətə çatdırıb. Həmçinin, ədliyyə sahəsində idarəçiliyin müasirləşdirilməsi məqsədilə strukturun təkmilləşdirilməsi və ştat vahidlərindən daha səmərəli istifadə olunması, kadrların peşəkarlığına xüsusi diqqətin yetirilməsi və etik davranış qaydalarına dönmədən əməl edilməsi, ədliyyə orqanları və məhkəmələr üzrə cari büdcə vəsaitlərinin yenidən baxılaraq qənaətlə xərclənməsi və izafi xərclərə yol verilməməsi ilə bağlı konkret göstərişlər verib.

Kollegiyada ölkə Prezidentinin 27 fevral 2020-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planından və bu mühüm sənədin icrasının təmin edilməsi barədə Nazirlər Kabinetinin 11.04.2020-ci il tarixli Sərəncamından irəli gələn vəzifələr müzakirə olunub, Milli Fəaliyyət Planının ədliyyə orqanlarında icrasının təşkili ilə bağlı konkret tapşırıqlar verilib.

Bildirilib ki, dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə açıq hökumətin təşviqinə və korrupsiyaya qarşı mübarizəyə xüsusi önəm verilərək dövlət idarəçiliyində şəffaflığın təmin olunması, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması, ictimai iştirakçılığın təşviqi, vətəndaş cəmiyyətinin inkişafı, yeni texnologiyaların və elektron xidmətlərin tətbiqi üzrə genişmiqyaslı və ardıcıl tədbirlər həyata keçirilir. Ötən dövrdə bu sahədə qəbul olunmuş milli fəaliyyət planlarının icrası çərçivəsində ədliyyə orqanları tərəfindən xeyli işlər görülüb.

İclasda qeyd olunub ki, bu sahədə həyata keçirilən tədbirlərin davamlılığının təmin olunması məqsədilə qəbul olunmuş açıq hökumətin təşviqinə dair yeni fəaliyyət planı müstəsna əhəmiyyət kəsb edir. Bu münüm sənədin ədliyyə orqanları tərəfindən icrası, o cümlədən korrupsiya risklərinin qiymətləndirilməsi və onların qarşısının alınması ilə bağlı tədbirlər müəyyən olunub, xüsusi planlar hazırlanaraq kollegiyada təsdiq edilib.

Həmin planlardan irəli gələn tapşırıqların, o cümlədən elektron ədliyyə xidmətlərinin və informasiya sistemlərinin imkanlarının artırılması, ictimai iştirakçılığın və beynəlxalq antikorrupsiya əməkdaşlığının genişləndirilməsi, antikorrupsiya və etik davranış məsələləri üzrə treninqlərin təşkili ilə bağlı və digər mühüm tədbirlərin vaxtında və dürüst icrasının təmin olunması diqqətə çatdırılıb.

Kollegiyada ədliyyə və məhkəmə sisteminin inkişafının mühüm "yol xəritəsi" olan "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" ölkə Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanının icrası üzrə kompleks tədbirlər vurğulanıb, o cümlədən ədalət mühakiməsinin təmin olunmasında mühüm rol oynayan məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi üzrə işlər qeyd edilib.

Məhkəmə Ekspertizası Mərkəzində rəhbərliyin möhkəmləndirildiyi bildirilərək bu sahədə fəaliyyətin müasir tələblərə uyğun qurulması ilə bağlı qarşıda duran vəzifələr diqqətə çatdırılıb, mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması, o cümlədən ekspertizaların keyfiyyətli və vaxtında aparılması, ən son elmi-texniki nailiyyətlərin və müasir tədqiqat metodlarının, özəl məhkəmə ekspertiza institutunun tətbiqi, Mərkəzin strukturunun təkmilləşdirilməsi və kadrlardan səmərəli istifadə olunması, Elmi Şuranın işinin effektiv təşkili, ictimai etimadın artırılması məqsədilə şəffaflığın artırılması ilə bağlı və digər tapşırıqlar verilib.

Eyni zamanda, məhkəmə qərarlarının icrasının səmərəliliyinin yüksəldilməsi, bu sahədə rəhbərliyin və nəzarətin gücləndirilməsi, analitik işin müasir tələblərə uyğun qurulması, o cümlədən təhlillərin keyfiyyətinin artırılması üzrə görülən işlər müzakirə edilib, konkret tədbirlər müəyyən olunub.

Bununla yanaşı, iclasda ədliyyə və məhkəmə fəaliyyətini tənzimləyən bəzi normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı layihələrə baxılaraq təsdiq edilib. Həmçinin, bir sıra qeyri-kommersiya hüquqi şəxslər dövlət qeydiyyatına alınıb.

# Ədliyyə naziri tərəfindən bölgə vətəndaşlarının videoqəbulu keçirilib






**Dünyada koronavirus (COVİD-19) infeksiyasının yayılması ilə əlaqədar ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə qlobal pandemiyaya qarşı qəti tədbirlər görülür, əhalinin sağlamlığının və təhlükəsizliyinin qorunması məqsədilə zəruri preventiv və profilaktik işlər aparılır, kütləvi tədbirlərlə yanaşı açıq qəbullar təxirə salınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinə uyğun olaraq aprelin 16-da ədliyyə naziri Fikrət Məmmədov tərəfindən Şirvan, Hacıqabul, Saatlı və Sabirabad rayonlarında yaşayan vətəndaşların videoqəbulu keçirilib.

Şirvan regional ədliyyə idarəsi vasitəsilə əvvəlcədən qəbula yazılmış 15 vətəndaşın videokonfrans şəklində müraciətləri dinlənilib, qaldırılan məsələlərlə bağlı nazirliyin videoqəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Bölgə sakinləri pandemiya şəraitində vətəndaşların müraciətlərinin dinlənilməsinin videokonfrans şəkildə təşkilindən məmnunluqlarını bildirib, onların qayğılarına həssaslıqla və diqqətlə yanaşılmasına görə ölkə Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.

# Ədliyyə Nazirliyində siyasi partiyanın sədrləri ilə görüş





**Dövlət müstəqilliyimizin bərpasından sonra Azərbaycanda ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş demokratik, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin əsaslarından olan çoxpartiyalılığın formalaşması və inkişafı istiqamətində mühüm addımlar atılıb.**

Ötən dövrdə bu sahədə fəaliyyəti tənzimləyən qanunvericiliyə əsasən müxtəlif yönümlü, məram və məqsədləri ilə fərqlənən 55 siyasi partiya dövlət qeydiyyatına alınıb.

Bu gün respublikamızda müxtəlif siyasi partiyalar qanunvericilik hakimiyyəti və yerli özünüidarəetmə orqanlarında təmsil olunmaqla ictimai-siyasi həyatda yaxından iştirak edirlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bütün sahələrdə, o cümlədən siyasi sistemin inkişafı yolunda genişmiqyaslı məqsədyönlü islahatlar həyata keçirilir.

Altıncı çağırış Milli Məclisin ilk iclasında çıxışı zamanı dövlət başçısının irəli sürdüyü partiyalararası geniş dialoqun aparılmasının vacibliyi ilə bağlı tövsiyəsi, artıq Prezident Administrasiyasında partiya rəhbərləri ilə müzakirələrin keçirilməsi, müxtəlif partiyaların nümayəndələrinin Milli Məclisin və komitələrinin rəhbərliyində təmsil olunması ölkədə çoxpartiyalı sistemin təkmilləşdirilməsinə xidmət edir.

Ölkə başçısı xüsusi vurğulayıb ki, fərqli baxışlardan asılı olmayaraq, hər bir siyasi qüvvə üçün bir amal müqəddəs olmalıdır, o da dövlətçilik, müstəqillik, azadlıq, rifah və inkişafdır.

Bu günlərdə Ədliyyə Nazirliyində Azad Demokratlar Partiyasının və Yeni Zaman Partiyasının qeydiyyat ilə bağlı müraciətlərinə əsasən təqdim olunmuş təsis sənədlərinin qanunvericiliyə uyğunluğu məsələsi öyrənilib və onların dövlət qeydiyyatına alınması barədə qərar qəbul edilib.

Bununla bağlı, aprel ayının 16-da Ədliyyə Nazirliyinin rəhbərliyi ilə qeydiyyata alınmış partiyaların sədrləri Sülhəddin Əkbər və Musa Ağayev arasında görüş keçirilib və onlara dövlət qeydiyyatı haqqında şəhadətnamələr təqdim edilib.

Partiya rəhbərləri ölkə başçısının iradəsi ilə çoxpartiyalı sistemin inkişafı sahəsində başlanmış prosesi dəstəklədiklərini vurğulayaraq, görülən işlərlə bağlı razılıqlarını ifadə edib və bu istiqamətdə atılan addımların dövlətçiliyimizin möhkəmləndirilməsinə xidmət edəcəyinə əminliklərini bildiriblər.

# "Pandemiya dövründə ədliyyəyə əlçatanlıq" mövzusunda videoəlaqə vasitəsilə onlayn mətbuat konfransı keçirilib

**İndiki pandemiya şəraitində vətəndaşların ədliyyə orqanlarına və məhkəmələrə əlçatanlığının asanlaşdırılması məqsədilə Ədliyyə Nazirliyi tərəfindən müasir innovasiyaların tətbiqinin genişləndirilməsi üzrə ardıcıl tədbirlər görülür.**

Bu ərəfədə əhaliyə yeni elektron və mobil xidmətlər təqdim olunaraq, məhkəmə qərarlarının icrası ilə əlaqədar Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə əməkdaşlıqda borcun və digər ödənişlərin onlayn qaydada həyata keçirilməsi imkanı yaradılıb. Həmçinin mobil notariatın imkanları genişləndirilərək vətəndaşlara yeni - nəqliyyat vasitələrinə sərəncam verilməsinə dair etibarnamələrin elektron qaydada təsdiq edilməsi xidməti istifadəyə verilib, "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə məhkəmə proseslərinin videokonfrans şəkildə keçirilməsi məqsədilə xüsusi proqram modulu hazırlanaraq tətbiqinə başlanılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və qərarlarına uyğun olaraq Ədliyyə Nazirliyində aprelin 30-da "Pandemiya dövründə ədliyyəyə əlçatanlıq" mövzusunda video-əlaqə vasitəsilə onlayn mətbuat konfransı keçirilib, ədliyyə və məhkəmə fəaliyyətinə əlçatanlığın genişləndirilməsinə yönələn bu innovasiyalar ictimaiyyətə təqdim olunub.




Tədbirdə nazirliyin aidiyyəti struktur və yerli qurumlarının rəhbər və məsul işçiləri, Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının prezidenti, Azərbaycan Mətbuat Şurasının, vətəndaş cəmiyyəti institutlarının və çoxsaylı KİV-lərin təmsilçiləri iştirak ediblər.

Mətbuat konfransında pandemiya dövründə nazirlik tərəfindən görülən tədbirlər, xüsusi rejim şəraitində ədliyyə orqanlarının fəaliyyətinin təşkili və innovasiyaların tətbiqi barədə çıxışlar edilib, faydalı diskussiyalar aparılıb.

Bildirilib ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı görülən qəti tədbirlər çərçivəsində ədliyyə orqanlarında və məhkəmələrdə pandemiyaya qarşı zəruri profilaktik və qabaqlayıcı tədbirlər görülüb, bu məqsədlə nazirlik üzrə xüsusi Əmr imzalanıb.

Həmçinin ədliyyə işçiləri və hakimlər dövlət başçısının və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çağırışlarına qoşularaq sosial həmrəylik nümayiş etdirdib, Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianələr, xüsusi qayğıya ehtiyacı olan ahıl və tənha vətəndaşlara müvafiq yardımlar olunub.

Məhkumların həyat və sağlamlıqlarının qorunması məqsədilə penitensiar müəssisələrin gücləndirilmiş iş rejimində fəaliyyəti, virusa yoluxması daha riskli olan yaşı 65-dən yuxarı məhkumlara həssas və humanist münasibət bəslənilərək dövlət başçısının əfv Sərəncamı ilə 176 nəfərin azadlığa buraxıldığı, həmçinin davamlı xarakter alan cəzadan şərti olaraq vaxtından əvvəl azadetmə institutunun tətbiqinin intensivləşdiyi qeyd olunub.

Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə işsiz

və xüsusi karantin rejiminə görə işini itirən aztəminatlı şəxslərə birdəfəlik ödəmələrin verilməsi üçün çoxsaylı fərdi məlumatlar təhlil edilərək Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim olunduğu vurğulanıb.

Qeyd olunub ki, ədliyyə xidmətlərinə əlçatanlığın asanlaşdırılması məqsədilə innovasiyaların tətbiqi genişləndirilib, nazirliyin rəsmi saytının "Vətəndaşlar üçün əlaqə" və "İnteraktiv əlaqə" bölmələrinin funksionallığı artırılaraq elektron qaydada müraciət etmək imkanları artırılıb, əhaliyə məsafədən xidmətlərin göstərilməsi genişləndirilib.

Mətbuat konfransında nazirlik tərəfindən yeni istifadəyə verilən innovasiyalar barədə məlumat verilərək borcun, o cümlədən aliment, kredit, cərimə və digər ödənişlərin "ASAN ödəniş, "Elektron hökumət" portalları və müxtəlif mobil tətbiq vasitəsilə nağdsız və ya müvafiq terminallar vasitəsilə nağd şəkildə həyata keçirilməsi, "Mobil notariat" tətbiqi üzərindən nəqliyyat vasitələrinə sərəncam verilməsinə dair etibarnamələrin elektron qaydada təsdiq edilməsi, həmçinin xüsusi proqram modulu vasitəsilə məhkəmə proseslərinin videokonfrans şəkildə keçirilməsinin təşkil edilməsi vurğulanıb.

Tədbirdə vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri tərəfindən mövzu ilə bağlı çıxışlar edilib, iştirakçılar arasında fikir mübadiləsi aparılıb, sual-cavab sessiyası keçirilərək, jurnalistlərin maraqlandıran suallar ətraflı cavablandırılıb.

# Ədliyyə Nazirliyi 1600 tənha yaşlıya ərzaq yardımı edib

**Respublikamızda qlobal pandemiyanın yayılmasının qarşısını almaq, əhalinin sağlamlığını və təhlükəsizliyini qorumaq məqsədilə Prezident İlham Əliyevin rəhbərliyi ilə zəruri preventiv və profilaktik işlər aparılır. Karantin rejiminin elan olunması ilə əlaqədar həssas əhali qruplarının qayğıları xüsusilə diqqətdə saxlanılaraq onların sosial ehtiyaclarının ödənilməsi istiqamətində lazımi tədbirlər görülür.**





Eyni zamanda ölkə ictimaiyyəti, ayrı-ayrı dövlət və özəl təşkilatlar koronavirus infeksiyası ilə mübarizə tədbirlərində sosial həmrəylik nümayiş etdirir, dövlət başçısının və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın azərbaycanlıların hər zaman, xüsusilə çətin anlarda bir-birilərinə, böyüklərimizə mərhəmətlə, qayğı və həssaslıqla yanaşılması ilə bağlı çağırışlarına qoşularaq aztəminatlı ailələrə, ahıl və tənha vətəndaşlara baş çəkir, onların zəruri ehtiyaclarının qarşılanmasında köməkliklərini əsirgəmirlər.

Bu xeyirxah aksiya Ədliyyə Nazirliyi tərəfindən davam etdirilib.

Ədliyyə Nazirliyi də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə əməkdaşlıq şəraitində 1600 tənha yaşlıya ərzaq yardımları edib.

Hazırda yaşı 65-dən yuxarı tənha yaşlı insanlar, eləcə də tənha yaşayan və özünəqulluq qabiliyyəti olmayan əlilliyi olan şəxslər sosial xidmət işçiləri tərəfindən evlərində gündəlik sosial məişət xidmətləri ilə təmin olunurlar.

Ədliyyə Nazirliyinin əməkdaşları sosial xidmət işçiləri ilə birgə ərzaq yardımlarını tənha yaşlılara evlərində çatdırıblar.

Qeyd edək ki, son günlərdə müxtəlif dövlət və özəl müəssisələr tərəfindən 13 min tənha yaşlıya ərzaq payı verilib. Hazırda həssas qruplardan olan şəxslərə ərzaq paylanılması prosesi Ədliyyə Nazirliyi və digər qurumlar tərəfindən davam etdirilir. Bu tədbirlər cəmiyyətimizdə yaşlı nəslə qayğı ilə yanaşılması kimi yüksək mənəvi dəyərlərin, eyni zamanda, milli həmrəyliyin əyani təzahürüdür.

# Ədliyyə və məhkəmə fəaliyyətində innovasiyaların tətbiqi genişlənir

## Onlayn sosial etibarnamənin tətbiqinə başlanılıb

**Ədliyyə Nazirliyi tərəfindən əhaliyə məsafədən göstərilən xidmətlərin genişləndirilməsi üzrə tədbirlər davam etdirilir.**

Bu məqsədlə müasir innovativ metodlardan istifadə olunmaqla yaradılmış "Mobil notariat" proqram təminatı vasitəsilə vətəndaşlara notariat ofisinə müraciət etmədən nəqliyyat vasitələrinin idarə olunmasına dair, həmçinin vəkillərə verilən etibarnamələrin mobil telefonlar vasitəsilə elektron qaydada rəsmiləşdirilməsi imkanı yaradılıb. Artıq elektron qaydada rəsmiləşdirilən etibarnamələrin sayı minlərlə ölçülür.

Tətbiq edilən yeni xidmət vasitəsilə "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən pulsuz və ya güzəştli dərman yardımı almaq hüququ olan vətəndaşlara Səhiyyə Nazirliyi ilə əməkdaşlıqda həftənin bütün günü 24 saat ərzində həmin dərmanları əldə etmək üçün evlərini tərk etmədən dövlətin sosial proqramından yararlanmaq məqsədilə digər şəxslərə real vaxt rejimində elektron etibarnamə vermək imkanı yaradılıb.

Sosial etibarnamənin elektron qaydada verilməsi imkanın yaradılması karantin rejimi dövründə sağlamlığının qorunması üçün evlərini tərk etməyə məhdudiyyət qoyulmuş bu xidmətlərin əsas istifadəçisi yaşı 65-dən yuxarı olan vətəndaşlar üçün xüsusi əhəmiyyət kəsb edir.

07.04.2020-ci il tarixdən istifadəyə verilən və 100 mindən çox insanın faydalanacağı "Sosial




etibarnamə"dən vətəndaşlar AppStore və PlayStore platformasından pulsuz "Mobil notariat" tətbiqini yükləyərək, habelə artıq istifadəçi olanlar isə proqramı yeniləməklə yararlana bilərlər. Ətraflı məlumat mobil tətbiqin sosial şəbəkə səhifələrində (www.facebook.com/mobilnotariat və www.instagram.com/mobil_notariat/) yerləşdirilib.

Qeyd olunmalıdır ki, xüsusi karantin rejimində olan vətəndaşlarımızın durumuna həssas yanaşılaraq xidmət pulsuz göstəriləcəkdir.

## "Mobil notariat"ın nəqliyyat vasitələrinə sərəncam verilməsinə dair etibarnamələrlə bağlı funksiyaları artırılıb

**Ədliyyə xidmətlərinə əlçatanlığın asanlaşdırılması məqsədilə mobil notariatın imkanları genişləndirilərək növbəti addım kimi, əhaliyə yeni - nəqliyyat vasitələrinə sərəncam verilməsinə dair etibarnamələrin elektron qaydada təsdiq edilməsi xidməti təqdim olunur.**

Bu xidmət mülkiyyətçi və ya etibarnamə əsasında onu təmsil edən şəxsin avtomobilin satılması, bağışlanması, dəyişdirilməsi, ipotekaya qoyulması, icarəyə verilməsi, daxili işlər orqanlarında qeydiyyata alın-




ması və ya qeydiyyatdan çıxarılması üzrə səlahiyyətlərin seçim üzrə bütünlüklə yaxud qismən digər şəxsə verilməsini təmin edir.

Yeni mobil tətbiq vasitəsilə, avtomobil sahibləri, o cümlədən ölkədən kənarda olan vətəndaşlarımız mülkiyyətçisi olduğu nəqliyyat vasitəsinə dair etibarnaməni heç yerə getmədən onlayn qaydada verə biləcəklər.

Fasiləsiz rejimdə göstərilən yeni xidmətin əsas özəlliyi ilk dəfə olaraq etibarnamələrin rəsmiləşdirilməsində videoyazı vasitəsindən istifadə edilməsidir ki, bu da həmin əqdlər üzrə sui-istifadə və vətəndaşların əmlak hüquqlarının pozulmasının qarşısını almağa xidmət edir.

Etibar edən şəxsin razılığı barədə "Mobil notariat" tətbiqində aparılmış video çəkiliş aidiyyəti notarius tərəfindən

yoxlanıldıqdan və etibar edən şəxs isə hüquq və vəzifələri barədə ətraflı izahlar əldə etdikdən sonra etibarnamə qanunvericiliyə uyğun qaydada təsdiq edilir.

Etibarnamələrin elektron nüsxəsi mobil tətbiqin qovluğunda saxlanılmaqla istənilən yerdə təqdim oluna bilər. Eyni zamanda verilmiş etibarnamələr təsdiq edildikdə bu barədə məlumat dərhal daxili işlər orqanlarına informasiya sistemi vasitəsi ilə ötürülür.

Aprelin 30-dan tətbiq edilən yeni xidmətdən nəqliyyat vasitələrinin mülkiyyətçiləri mobil telefonların App Store və Google Play satış platformalarından "Mobil notariat" tətbiqini ödənişsiz yükləməklə, habelə artıq istifadəçi olanlar isə proqramı yeniləməklə rahatlıqla istifadə edə bilərlər.

Elektron etibarnamələrin verilməsi qaydası barədə ətraflı məlumat Ədliyyə Nazirliyinin "facebook" sosial şəbəkə səhifəsində yerləşdirilib.

## ◆ Məhkəmə qərarları üzrə borcun və digər ödənişlərin onlayn qaydada və ya terminallar vasitəsilə həyata keçirilməsi imkanı yaradılıb

**Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya elan edilmiş koronavirus (COVID-19) infeksiyasının ölkəmizdə yayılmasının qarşısının alınması məqsədilə karantin rejiminin elan olunması çərçivəsinə Ədliyyə Nazirliyi tərəfindən müasir innovasiyalar tətbiq edilməklə vətəndaşların ədliyyə orqanlarına əlçatanlığının asanlaşdırılması üzrə mühüm tədbirlər görülür.**

Bu məqsədlə məhkəmə və digər orqanların qərarlarının icrasının mütəşəkkil qaydada təmin edilməsi, o cümlədən sosial baxımdan həssas olan aliment və digər icra sənədləri üzrə borcların vaxtında və rahat ödənilməsi üçün əhaliyə yeni imkan yaradılıb.

Ölkə Prezidenti cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanına əsasən "Elektron icra" informasiya sisteminin tətbiqinin genişləndirilməsi üzrə görülən kompleks tədbirlər çərçivəsində icra xidməti üzrə məhkəmə və digər orqanların qərarlarının icrası ilə əlaqədar borcun və icra hərəkətləri ilə bağlı xərclərin ödənişləri "ASAN ödəniş" sisteminə uğurla inteqrasiya olunub.

Ədliyyə Nazirliyi tərəfindən Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə əməkdaşlıqda tətbiq olunan bu yenilik vasitəsilə məhkəmə qərarları üzrə borclu şəxslər borclarını, o cümlədən aliment, kredit, cərimə və digər ödənişləri "ASAN ödəniş" və "Elektron hökumət" portalları, eləcə də müxtəlif mobil tətbiqlər vasitəsilə nağdsız şəkildə həyata keçirə biləcəklər.

Eyni zamanda, hər hansı səbəbdən nağdsız ödəniş etmək imkanı olmayan vətəndaşlar üçün respublikanın bütün bölgələrini əhatə edən "E-Manat",



"Milli Ön" və "ASAN ödəniş" terminalları vasitəsilə yaşayış yerindən uzaqlaşmadan borc və icra ödənişlərinin nağd şəkildə də həyata keçirilməsi üçün şərait yaradılıb.

Bundan əlavə, borca görə ölkədən getmək hüququna məhdudiyyət qoyulmuş şəxslər nağdsız qaydada və ya terminallar vasitəsilə icra üzrə borcunu ödədiyi təqdirdə həmin məhdudiyyət avtomatik aradan qaldırılır və müvafiq məlumat real vaxt rejimində Dövlət Sərhəd Xidmətinə ötürülür.

Ədliyyə Nazirliyi tərəfindən məhkəmə və digər orqanların qərarlarının icrasının səmərəliliyinin artırılması üzrə ardıcıl tədbirlər davam etdirilir.

## ◆ Məhkəmə prosesinin videokonfrans şəklində keçirilməsi təşkil olunur

**Əhalinin sağlamlığının və təhlükəsizliyinin qorunması məqsədilə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə COVİD-19 infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı qəti tədbirlər görülür. Bu məqsədlə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən sosial izolyasiya qaydaları və xüsusi karantin rejimi tətbiq olunub, fəaliyyət məhdudlaşdırılıb.**

Bu tədbirlər çərçivəsində həmçinin, mülki işlər və kommersiya mübahisələri üzrə

məhkəmə icraatının "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə aparılması imkanı yaradılıb. Bununla əlaqədar dövlət başçısının məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə dair 2019-cu il 3 aprel tarixli Fərmanının icrası çərçivəsində "Elektron məhkəmə" informasiya sisteminin funksionallığının artırılması üzrə tədbirlər davam etdirilərək, Ədliyyə Nazirliyi tərəfindən Mülki-Prosessual Məcəllənin tələbləri nəzərə alınmaqla və qabaqcıl beynəlxalq təcrübə öyrənilməklə xüsusi proqram modulu işlənib hazırlanıb.

"Elektron məhkəmə" informasiya sistemində yaradılmış yeni proqram məhsulu vasitəsilə məhkəmə proseslərinin onlayn rejimində video konfrans formasında həyata keçirilməsi, həmçinin iclasın avtomatlaşdırılmış rejimdə audio və video yazılışının aparılması mümkündür.

Bu innovasiyanın tətbiqi ilə tərəflərə çox sadə üsulla, hətta "Şəxsi elektron kabinet" yaratmadan kompüter və ya mobil telefon vasitəsilə video iclasa qoşulmaqla məhkəmə baxışında iştirak etmək imkanı yaradılıb. İştirakçılar əvvəlcədən təyin olunmuş vaxtda prosesə məhkəmə tərəfindən elektron qaydada göndərilmiş elektron keçid üzərindən qoşula bilirlər.

İndiki pandemiya şəraitində vətəndaşların təhlükəsizliyinin qorunması və onların hüquqlarının məhkəmə müdafiəsinin təmin olunması məqsədilə Bakı şəhəri Yasamal Rayon Məhkəməsində həmin proqram təminatı uğurla tətbiq olunaraq məhkəmə prosesləri videokonfrans şəklində onlayn qaydada keçirilib və yekun qərarlar çıxarılıb.

Vərəndaşların məhkəmələrə müraciət imkanlarının və ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması məqsədilə Ədliyyə Nazirliyi tərəfindən məhkəmələrin fəaliyyətində müasir İKT-lərin və innovasiyaların tətbiqinin genişləndirilməsi üzrə tədbirlər davam etdirilir.

# Ədliyyə Akademiyasında tədris distant formada davam etdirilir

**Ölkə Prezidenti cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanının icrası çərçivəsində Ədliyyə Akademiyasının potensialının gücləndirilməsi, tədris işinin ən müasir metodikalar və İKT-lər tətbiq olunmaqla təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər həyata keçirilir.**

Tədris prosesinin elektronlaşdırılması və təlim materiallarının dinləyicilərə əlçatanlığının təmin edilməsi məqsədilə Akademiyanın 2017-ci ildən tətbiq olunan Elektron Tədris Platformasının (Moodle Proqramı) imkanları genişləndirilir.

COVID-19 infeksiyasının ölkəmizdə yayılmasının qarşısının alınması məqsədilə xüsusi karantin rejiminin elan olunması ilə əlaqədar dövlət və qeyri-dövlət təşkilatlarında fəaliyyətin əsas etibarilə İKT-nin tətbiqi ilə həyata keçirildiyi nəzərə alınaraq, Ədliyyə Akademiyasında ədliyyə orqanlarına qulluğa qəbul edilən, habelə vəkilliyə namizədlər üçün onlayn qaydada distant təlimlər təşkil olunur.

Hazırda vəkilliyə yeni namizədlərin qəbulu çərçivəsində 84 nəfər "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanuna əsasən Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında peşəyə buraxılış üzrə icbari təlim keçirlər.

Vəkilliyə namizədlərə "Cinayət prosesində



sübutlar və sübutetmə", "Əqdlərin etibarsızlığı", "Cinayət prosesində müdafiə tərəfi və vəkillərin cinayət prosesində iştirakının xüsusiyyətləri", "Vergi mübahisələri, vəkillərin vergi və sosial sığorta öhdəlikləri", "Mübahisələrin alternativ həlli və mediasiya məsələləri", "Kibercinayətkarlıq və kibertəhlükəsizlik", "İddia ərizələrinin icraata qəbulu məsələlərinin xüsusiyyətləri", "Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi: Ədalətli məhkəmə araşdırması hüququ mülki-hüquqi aspektdə" və s. mövzular videokonfrans vasitəsilə distant formada tədris olunub.

Mövzular hakimlər, Vəkillər Kollegiyasının üzvləri, Akademiyanın əməkdaşları və digər təcrübəli təlimçilər tərəfindən diqqətə çatdırılıb.

# Sahibkarlığın inkişafında bələdiyyələrin rolu

**Ləzifə MƏMMƏDOVA,**
**Ədliyyə Nazirliyi Bələdiyyələrlə iş mərkəzi İnzibati nəzarət idarəsinin məsləhətçisi**

**Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra sahibkarlıq fəaliyyəti ölkədə bazar münasibətlərinin inkişafının, ölkə əhalisinin maddi rifah halının və sosial - mənəvi səviyyəsinin yüksəldilməsinin, cəmiyyətin sosial sabitliyinin, ölkənin iqtisadi suverenliyinin və siyasi müstəqilliyinin, yeniliklərə əsaslanan istehsalın inkişafının təmin edilməsinin, bazar prinsipləri üzərində qurulan iqtisadi mexanizmin yaradılmasının vacib amillərindən birinə çevrilmişdir.**

Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş azad sahibkarlıq hüququ hər kəsin qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə sahibkarlıq və qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilməsini ehtiva edir. Konstitusiyaya görə Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə isə inhisarçılığa və haqsız rəqabətə yol verilmir.

"Sahibkarlıq fəaliyyəti haqqında" Qanuna əsasən sahibkarlıq fəaliyyəti dedikdə, şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, əmtəə satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət (fərdi sahibkarlar tərəfindən gəlir) götürülməsi olan fəaliyyət nəzərdə tutulur.

Dünya təcrübəsi göstərir ki, azad sahibkarlıq dövlətin və cəmiyyətin gələcək inkişafında mühüm rol oynayır. Ölkəmizdə sahibkarlığın inkişafına, biznes mühitinin yaxşılaşdırılmasına dövlət tərəfindən daim qayğı göstərilir. Bu məqsədlə sahibkarlığın inkişafı ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların cəlb edilməsi və bu yolla yüksək keyfiyyətli məhsulların istehsalı ölkə Prezidentinin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindən biridir.

Mütərəqqi islahatların həyata keçirildiyi şəraitdə sahibkarlığın dəstəklənməsi sahəsində bələdiyyələrin iştirakının aktivləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Beynəlxalq təcrübədə bələdiyyələrin fəaliyyətinin mühüm istiqamətlərindən biri bələdiyyə sahibkarlığının inkişaf etdirilməsidir. Qərbi Avropa ölkələrində (Böyük Britaniya, Fransa, Almaniya, Norveç, İsveç və s.) bələdiyyə sahibkarlığının inkişafı məhz kiçik sahibkarlığın hesabına təmin olunur. Kiçik iqtisadiyyatda kapital daha sürətlə dövr edir. Kiçik bələdiyyə müəssisələrində kapitalın passiv hissəsinin xüsusi çəkisi aşağı olur. İşçi qüvvəsi daha çox yüklənir və əmək məhsuldarlığı yüksək olur.

Həmçinin beynəlxalq təcrübədə bələdiyyə müəssisələrinin üstünlüklərindən biri də sosial sahədə gərginliyin azaldılmasında böyük rol oynamalarının nəzərə alınmasıdır. Belə ki, müəyyən səbəblərdən və ixtisar olunmaqla işsiz qalan mütəxəssislər kiçik müəssisələrdə işə cəlb olunurlar. Həmçinin yerli şəraitə uyğun kiçik müəssisələrin təşkili həm yerli xammaldan, həm də əmək ehtiyatlarından səmərəli istifadəyə münbit şərait yaradır.

Bələdiyyə müəssisələrinin, o cümlədən xidmət sahələrinin yaradılması bizim ölkədə də vacib məsələlərdəndir. Bu istiqamətdə inkişafın təmin edilməsində yerli büdcə vəsaitləri, qrant və kreditlərdən istifadə oluna bilər. Yerli maliyyə vəsaitlərinin az olması daha optimal variantların seçilməsini, daha az kapital qoyuluşu tələb edən layihələrin həyata keçirilməsini zəruri edir.

Yerli özünüidarə orqanlarının bələdiyyə mülkiyyəti sahəsində səlahiyyətləri bələdiyyə mülkiyyətinin artırılması və inkişaf etdirilməsi məqsədinə xidmət etməlidir. Dövlət bələdiyyə mülkiyyətini müdafiə edir, subsidiya və subvensiyalar, kreditlər, qrantlar vermək yolu ilə onun inkişafına imkan yaradır. Bütün bunlar imkan verir ki, bələdiyyə təsərrüfatı səmərəli şəkildə idarə olunsun, bələdiyyə qurumlarına əhalinin tələbatını təmin etməsi üçün zəruri şərait yaradılsın.

Bələdiyyələr regionun, ərazinin təbii və sosial-iqtisadi potensialından, əmək ehtiyatlarından, yerüstü və yeraltı sərvətlərindən, su və torpaq ehtiyatlarından səmərəli istifadə etməklə müvafiq ərazinin inkişafını və əhalinin rifahını yüksəltmə imkanlarına malikdirlər. Bu baxımdan, bələdiyyələrin mövcud olduğu ərazinin iqtisadi potensialının formalaşmasında iştirakı zəruridir. Xüsusilə sahibkarlığın inkişafına aid dövlət proqramları çərçivəsində bələdiyyələr öz ərazilərində kiçik sahibkarlıq üçün münbit şərait yaratmaqla öz təsərrüfat subyektlərini təşkil edərək bölgə iqtisadiyyatının dinamik inkişafına təkan verə bilərlər.

Məlum olduğu kimi, bələdiyyə qurumlarının əhatə etdikləri şəhərlər, qəsəbələr və kəndlər özünəməxsus ərazi istehsal və təsərrüfat kompleksləridir. Bələdiyyələrin kompleks inkişafı yerli təsərrüfatların səmərəliliyinin artırılması, sosial-mədəni və ekoloji məsələlərin həlli, habelə əmək, təbii və digər yerli ehtiyatlardan istifadə etməklə vətəndaşların həyat və istirahəti üçün zəruri şərtlərin yerinə yetirilməsi məqsədlərinə xidmət edir. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununda bələdiyyələrin bu istiqamətdə məqsədli proqramların tərtib edilməsi hüquqları müəyyən edilmişdir. Yerli sosial müdafiə və sosial inkişaf proqramlarında məqsəd yerli əhəmiyyətli sosial inkişaf məsələlərini həll etməkdir. Həmin proqramlar aqrar, sənaye, rabitə, nəqliyyat və digər sahələri əhatə edə bilər. Yerli iqtisadi inkişaf proqramlarında bələdiyyə torpaqlarından və onların mülkiyyətində olan əmlakdan səmərəli istifadə yolları göstərilməlidir.

Qanunvericiliyə uyğun olaraq bələdiyyələr təsərrüfat fəaliyyəti ilə və qanunla qadağan edilməmiş başqa fəaliyyətlə məşğul olmaq üçün müstəqil hüquqi şəxslər yarada bilər, onların yenidən təşkili və ləğvi məsələlərini həll edə bilərlər. Yerli özünüidarə orqanları bələdiyyə müəssisə, təşkilat və idarələrinin idarə olunmasında geniş hüquqlara malikdirlər. Bələdiyyələrin təsis etdiyi kommersiya hüquqi şəxsləri mənfəət vergisini yerli büdcəyə ödəyirlər.

"Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinə əsasən bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərin mənfəət vergisi yerli vergilərin tərkibinə daxildir. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 104.1-ci maddəsinə uyğun olaraq vergi ödəyicisinin bütün gəlirləri ilə gəlirdən çıxılan xərc (vergidən azad edilən gəlirlər üzrə çəkilən xərclərdən başqa) arasındakı fərq mənfəətdir. 105.1-ci maddədə isə göstərilir ki, müəssisələrin mənfəətindən 20 faiz dərəcəsi ilə vergi tutulur. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər.

Hazırkı dövrdə bələdiyyələr mütərəqqi idarəçilik metodlarından istifadə edərək cəsarətli və təşəbbüskar addımlar atmaqla bələdiyyə müəssisələrinin, xidmət sahələrinin yaradılması istiqamətində müsbət nəticələr əldə edə bilərlər. Bu məqsədlə şəhər və qəsəbə bələdiyyələri kiçik həcmli istehsal və xidmət sahələrinin yaradılması, kənd bələdiyyələri isə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, o cümlədən hazır məhsulun digər şəhər və qəsəbə bələdiyyələri ilə qarşılıqlı müqavilə əsasında realizə edilməsi sahəsində müəssisələrin yaradılmasını həyata keçirə bilərlər.

Şəhər və qəsəbə bələdiyyələri bu məqsədlə inzibati ərazidə bərbərxana, dərzixana, kiçik avtotəmir və yuyucu sexləri, plastik və digər materiallardan qapı və pəncərələrin düzəldilməsi və sair xidmət obyektlərinin təşkilini həyata keçirə bilərlər.

Kənd bələdiyyələri isə öz ərazilərində kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üçün kiçik sexlər yarada, təbii sərvətlərdən (ağac, çınqıl, qum, gil və sair) istifadə edərək xam-

mal, yarımfabrikat və hazır məhsul istehsalı üzrə sexlər təşkil edə bilərlər.

Qeyd olunanlarla yanaşı, turizm sektorunu inkişaf etdirməklə də ölkənin iqtisadiyyatına gəlir təmin edilə, məşğulluqla yanaşı, sahibkarlığın inkişafına da dəstək verilə bilər. Bununla əlaqədar bələdiyyələr öz hüdudları çərçivəsində turizmin inkişafına müsbət təsir göstərən müxtəlif xidmətlər həyata keçirə bilər. Bu xidmətlər yerli vəsaitə uyğun olaraq, bələdiyyənin səlahiyyətləri və maliyyə imkanları çərçivəsində həyata keçirilməlidir. Müxtəlif sahələri əhatə edən bu xidmətləri təşkil etmək üçün, əslində bir o qədər də maliyyə resursu tələb olunmur. Bələdiyyə daxili imkanlarla və könüllülərin, xüsusilə gənclərin dəstəyi ilə bu layihələri həyata keçirə bilər. Misal olaraq, kənd yerlərində çoxsaylı ailə fermer təsərrüfatları vardır ki, onların istehsal etdiyi kiçik həcmli kənd təsərrüfatı məhsullarını bazarlara çıxarmağa imkanları məhduddur. Nəticə etibarı ilə, ailə özünü lazımi qədər məhsulla təmin etdikdən sonra artıq qalan məhsul istifadə edilmir ki, bu da ailə büdcəsinə ziyan vurur. Yerli özünüidarəetmə orqanları öz xidmətlərini göstərməklə, bu problemin həllinə qismən də olsa yardımçı ola bilər. Əhalidən məhsulu toplamaq məqsədilə kiçik tədarük məntəqəsi yaradılmaqla, burada yığılan məhsul müvafiq müştərilərə çatdırıla bilər. Artıq qalan məhsulu bələdiyyə hüquqi şəxs təsis etməklə öz ərazisində kiçik bazar yaradaraq sata bilər. Bu xidməti göstərməklə bələdiyyə yerli əhali və turizm obyektləri ilə yanaşı, buraya gələn turistlərin məmnunluğunu da təmin etmiş olar.

Bununla yanaşı, bələdiyyə öz ərazisində turizm marşrutlarına yaxın bir yerdə tələbatdan və turizm növündən asılı olaraq, müxtəlif turizm əşyalarının kirayəsini təşkil edə bilər. Məsələn: meşəlik və dağlıq ərazilərdə bu velosiped, çadır, manqal və s. dənizkənarı turizm zonalarında çətir, tilov, üzgüçülük vasitələri və s. ola bilər. Bələdiyyə bunları təşkil etmək və ərazini turistlər üçün daha da cəzbedici etməklə, həm də əlavə gəlir mənbəyi əldə etmiş olur.

Bəllidir ki, hər bir turist getdiyi yerdən kiçik də olsa, suvenir və ya həmin regionun məşhur bir məhsulunu almağa cəhd edir. Ölkəmizdə bəzi bölgələr öz "brend" turizm məhsulları ilə məşhurlaşa bilsələr də turizm potensialına malik bir çox yerlər hələ də turistləri cəlb etmək baxımından rəqabətdə geri qalırlar. Ərazinin turizm cəhətdən təşviqinə böyük təsir göstərən belə "brend" məhsullar, adətən kənd təsərrüfatı məhsulu, sənətkarlıq nümunələri və s. ola bilər.

Ölkəmizin bir çox bölgələri özünəməxsus kənd təsərrüfatı məhsulları ilə tanınır. Həmin məhsulları turizmi təşviq etmək məqsədilə regionun kənd təsərrüfatı brendinə çevirmək mümkündür. Daha çox məhsul yığımı zamanı müxtəlif maraqlı tədbirlər təşkil etməklə, yerli və beynəlxalq turistlər regiona cəlb oluna bilər. Belə tədbirlərdə təkcə bir məhsulu deyil, eyni zamanda həmin brenddən hazırlanmış digər məhsulları da gələn qonaqlara təqdim etmək fürsəti yaranır. Bu məhsulların satışından ilk növbədə, yerli əhali və sahibkarlar faydalanır ki, bu da yerli iqtisadi inkişafa kifayət qədər öz töhfəsini verir. Sözsüz ki, belə geniş miqyaslı tədbirlərin təşkili təkcə bələdiyyələrin işi deyil, lakin onlar müəyyən təşəbbüslərlə çıxış edərək belə tədbirlərin təşkilində yaxından iştirak edə bilərlər. Bələdiyyələr tələb və təklifə uyğun olaraq qeyd olunanları həyata keçirməklə, turizmin inkişafına öz töhfələrini verə bilər. Belə layihələr bələdiyyə büdcəsinə əlavə gəlir gətirməklə yanaşı, ölkəmizə gələn turistlərin göstərilən xidmətlərdən razı qalmasını da təmin edə bilər.

Yerli özünüidarəetmə orqanları turizmin, eləcə də tibbi turizmin inkişafında mühüm rola malikdir. Bələdiyyələr əhali ilə bilavasitə təmasda olduğundan, onların maraqlarının, arzu və təkliflərinin nəzərə alınmasını təmin etməklə yerli və regional səviyyədə turizmin inkişafında müstəsna xidmətlər göstərə bilərlər. Bələdiyyələr qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlərindən istifadə edərək mülkiyyətində olan torpaq sahələrində müəyyən infrastruktur yaratmaq və ya hər hansı tibbi turizm obyektini inşa etmək məqsədi ilə investorları cəlb etməklə yerli büdcə üçün davamlı gəlir mənbəyi əldə edə bilərlər.

Hesab edirik ki, bu tədbirlər nəticəsində bələdiyyələrin

sahibkarlığın inkişafında iştirakı ölkədə baş verən urbanizasiya proseslərinə də öz təsirini göstərə bilər. Belə ki, səmərəli fəaliyyət göstərən kənd və qəsəbə bələdiyyələri nəinki öz ərazilərində yaşayan əhali üçün məşğulluq sahələrini genişləndirməklə insanların şəhərlərə axınının qarşısını ala bilər, hətta şəhərdən kəndə axının güclənməsinə səbəb olar.

Ölkəmizdə 2025-ci ilədək olan dövr üçün yoxsulluğun azaldılması və iqtisadi inkişafa dair milli iqtisadiyyatın demək olar ki, bütün sektorlarını əhatə edən strateji yol xəritələri hazılanmış və hədəflər müəyyənləşdirilmişdir. Belə ki, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətliliyini və insan kapitalından istifadənin səmərəlliliyini artırmaq, idxaldan asılılığı azaltmaq, gələcək iqtisadi inkişafı təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı il tarixli Fərmanı ilə 12 istiqamət üzrə Yol Xəritəsi təsdiq olunmuş, cari, orta və uzunmüddətli dövr üçün milli iqtisadiyyatın inkişaf hədəfləri və istiqamətləri müəyyən edilmişdir.

Bu Fərmanla təsdiq olunmuş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə yerli özünüidarəetmə orqanlarının kəndlərin inkişafı, orada əhalinin məşğulluğunun təmin edilməsi, mədəni irsin ötürülməsi, kənd həyatı ənənələrinin saxlanılması və ənənəvi həyat tərzinin qorunması sahəsində təşəbbüslərinin dəstəklənməsi, kəndin sosial-iqtisadi inkişafı ilə bağlı bələdiyyələrin öhdəliklərinin artırılması məqsədi ilə tədbirlərin görülməsi də nəzərdə tutulmuşdur. Bu tədbirlər nəticəsində kənddə bələdiyyələrin açdığı iş yerlərinin sayının 30 faiz, qadınların və gənclərin inkişafına yönəldilmiş proqramların sayının 3 dəfə artırılması və kəndin sosial-ictimai həyatında onların fəal iştirakı hədəflənmişdir.

Azərbaycanda 1606 bələdiyyə var və kifayət qədər böyük rəqəmdir. Bələdiyyələr iri şəhərlərdən, qəsəbə və ucqar kəndlərə qədər ölkənin bütün ərazisini əhatə edirlər. Bu isə böyük imkanlar deməkdir. Bələdiyyə müəssisələrinin yaradılması yeni iş yerlərinin açılması, əhalinin sosial rifahının yüksəlməsi, iqtisadiyyatın şaxələndirilməsi, regionların inkişafı, yoxsulluğun daha da azadılması, idxalın daha da azalması və ixracın artması deməkdir.

Bələdiyyələrin bu qədər geniş imkan və resurslara malik olmaqlarına baxmayaraq maliyyə imkanlarının zəif olması və biznes təcrübələrinin olmaması bələdiyyə müəssisələrinin yaradılmasına və iqtisadi fəaliyyətlə məşğul olmaqlarına imkan vermir. Bu səbəbdən bələdiyyələr iqtisadi fəaliyyətə başlamazdan əvvəl üç əsas problem həll edilməlidir:

1. Maliyyə qaynağının əldə edilməsi.

2. Hansı sahələrə kapital qoyulmasının müəyyənləşdirilməsi.

3. Bələdiyyə işçiləri üçün biznes təlimlərinin keçirilməsi.

Maliyyə məsələsi həllini tapdıqdan sonra ikinci məsələ kapital qoyulacaq sahələrin dəqiqləşməsidir. Bunun üçün ilk növbədə hər bələdiyyə öz ərazisində sənaye, kənd təsərrüfat, turizm və digər sahələrdən hansılarla məşğul olmağın mümkünlüyünü öyrənməlidir. Bunun üçün aşağıdakı faktorlar önəmlidir:

Ərazinin iqtisadi-coğrafi mövqeyi;

Ərazinin təbii şəraiti və ehtiyatları;

Ərazi üzrə əhalinin məskunlaşma səviyyəsi;

Ərazinin sahə və quruluşu;

Ərazinin tarixən iqtisadi inkişaf xüsusiyyətləri.

İlk növbədə daxili bazarın tələbatı nəzərə alınaraq Azərbaycana idxal edilən ərzaq məhsullarının siyahısı çıxarılmalı və hansı bölgədə idxal edilən kənd təsərrüfatı məhsullarının hansının istehsalı və emalının mümkünlüyü planlaşdırılmalıdır.

Yerli tələbatın ödənilməsi ilə yanaşı, ixrac yönümlü məhsulların istehsalı, xidmət sahələrinin təşkili bələdiyyəyə xarici valyuta ilə gəlir əldə etməsinə kömək edə bilər.

Növbəti mərhələdə bələdiyyə üzvləri və bələdiyyə qulluqçuları üçün biznes bacarıqlarının və biliklərinin artırılması məqsədilə qabaqcıl təcrübələrə əsaslanan keyfiyyətli biznes təlimləri təşkil edilməlidir. Təlimlərin keçirilməsində məqsəd yaranacaq bələdiyyə müəssislərini və bələdiyyə biznesini idarə edə biləcək peşəkar və bacarıqlı biznes idarəçilərinin yetişdirilməsidir.

Görüləcək işlərdə bələdiyyə assosiasiyalarının rolu və iştira-

kı da müsbət nəticələr verə bilər. Bələdiyyə assosiasiyaları bu istiqamətdə görüləcək bütün işləri yaxından monitorinq edərək, onların səmərəliliyini və müvafiq yenilikçi təşəbbüsləri, təklifləri, gətirəcəyi faydaları müəyyən edə, maneələrin aradan qaldırılmasına kömək etmək üçün təkliflə çıxış edə, habelə bələdiyyələrin təşəbbüslərini dəstəkləyə bilərlər.

Azərbaycan bələdiyyələrinin milli assosiasiyaları bələdiyyələr tərəfindən bu sahədə göstəriləcək təşəbbüsü, ediləcək müraciət və təklifləri dəstəkləməklə, onlara yaxından hərtərəfli yardım göstərməlidir. Bununla yanaşı, bir neçə bələdiyyənin, o cümlədən şəhər, qəsəbə və kənd bələdiyyələrinin qarşılıqlı müqavilələr əsasında birgə istehsal və xidmət sahələrinin yaradılması təşəbbüsünə də əlaqələndirici yardımlar edə bilər.

Hazırda sahibkarlığın inkişafında və yerli turizmin təşkilində bələdiyyələrin iştirakının genişləndirilməsi məqsədilə Ədliyyə Nazirliyi tərəfindən Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə birgə hazırlanmış "Yerli turizmin təşkilində bələdiyyələrin iştirakı" kitabı bələdiyyələrə paylanılmış, Ədliyyə Nazirliyi kollegiyasının qərarına uyğun olaraq hazırlanmış "Sahibkarlığın inkişafında bələdiyyələrin iştirakı ilə bağlı qanunvericiliyə dair sənədlər toplusu" Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin maliyyə yardımı ilə çap edilərək təqdimatı keçirilmişdir. Həmçinin Nazirliyin regional ədliyyə idarələri ilə birgə bələdiyyə üzvləri və qulluqçuları üçün Gəncə-Qazax iqtisadi rayonunda "Subvensiya layihələrinin hazırlanması və idarə edilməsi", "Sahibkarlığın inkişafında bələdiyyələrin iştirakı" mövzularında regional təlim və seminarlar keçirilmişdir.

Bələdiyyələrlə İş Mərkəzi tərəfindən yerli özünüidarə orqanlarının dayanıqlı gəlir mənbələrinin əldə edilməsi məqsədi ilə bələdiyyələr tərəfindən sahibkarlıq qurumlarının yaradılması vəziyyətinin, həmçinin yaradılmış müəssisələr barədə zəruri məlumatların öyrənilərək təhlil edilməsi və nəticəsinə uyğun əməli və metodik kömək göstərilməsi barədə bir sıra tədbirlər həyata keçirilir.

Bələdiyyə müəssisə təsis edərkən ilk növbədə onun yaradılması qaydalarını bilməli və müəssisənin fəaliyyətini qanunauyğun qurmalıdır. Bələdiyyələr tərəfindən təsis edilən hüquqi şəxslərin Azərbaycan Respublikasının müvafiq qanunvericilyində nəzərdə tutulmuş qaydalarla yaradılması və fəaliyyəti üçün aşağıda qeyd olunanlara xüsusi diqqət yetirilməsi zəruridir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin tələblərinə əsasən bələdiyyələr tərəfindən təsis edilən hüquqi şəxs onun təsis edilməsi və nizamnaməsinin hazırlanması yolu ilə yaradılır. Əgər hüquqi şəxs bir neçə təsisçi tərəfindən yaradılırsa, təsisçilər müqavilə bağlayaraq hüquqi şəxsin nizamnaməsini, onun yaradılması üzrə birgə fəaliyyət qaydasını, özlərinin əmlakının ona verilməsi və onun fəaliyyətində iştirak edilməsi şərtlərini müəyyənləşdirirlər. Hüquqi şəxsin təsisçiləri hüquqi şəxsin dövlət qeydiyyatına alınmasına qədər əmələ gəlmiş, hüquqi şəxsin yaradılması ilə bağlı olan öhdəliklər üzrə birgə məsuliyyət daşıyırlar. Hüquqi şəxsin təsisçiləri tərəfindən təsdiq edilmiş nizamnaməsi hüquqi şəxsin təsis sənədidir.Hüquqi şəxs həmin təsisçinin təsdiq etdiyi nizamnamə əsasında fəaliyyət göstərir.Bələdiyyənin yaratdığı hüquqi şəxsin nizamnaməsində hüquqi şəxsin adı, olduğu yer, fəaliyyətinin idarə edilməsi qaydası, habelə onun ləğvi qaydası müəyyənləşdirilir.

Bələdiyyə tərəfindən təsis edilən hüquqi şəxs müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alınmalıdır. Dövlət qeydiyyatının məlumatları, o cümlədən kommersiya təşkilatları üçün firma adı ümumi tanışlıq üçün açıq olan hüquqi şəxslərin dövlət reyestrinə daxil edilir.

Bələdiyyələrin yaratdıqları hüquqi şəxslərin dövlət qeydiyyatı isə "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aparılır.

Yeni müəssisələrin yaradılması və bələdiyyə sahibkarlığının genişləndirilməsi istiqamətində bələdiyyələrlə aparılan işin gücləndirilməsi zəruridir. Təhlillər göstərir ki, bələdiyyələrdə, onların vəzifəli şəxslərində təşəbbüskarlıq, habelə işgüzarlıq olduqda nəticə əldə etmək mümkündür.

## Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23-cü maddəsinin şərh edilməsinə dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr),

Sona Salmanova, Südabə Həsənova (məruzəçi-hakim), Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Bakı şəhəri Xətai Rayon Məhkəməsinin hakimi Pərviz Zamanlı və Azərbaycan Respublikası Milli Məclisi Aparatının İqtisadi qanunvericilik şöbəsinin baş məsləhətçisi Fərid Hacıyevin,

mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Elşanə Vəliyeva və Bakı Apellyasiya Məhkəməsinin hakimi İkram Şirinovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı qaydasında açıq məhkəmə iclasında Bakı şəhəri Xətai Rayon Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23-cü maddəsinin şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim S.Həsənovanın məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını dinləyib, ekspertin rəyini nəzərdən keçirib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Bakı şəhəri Xətai Rayon Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra - Mülki Məcəllə) 21.1 və 23-cü maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 29-cu maddəsinin müddəaları baxımından şərh edilməsini xahiş etmişdir.

Müraciətdə şəxsin ölməsi nəticəsində onun bütün ailə üzvlərinin mənəvi zərərə görə kompensasiya almaq hüququnun olub-olmaması, belə halda daha kimlərin kompensasiya almaq hüququnun olması, eləcə də ölmüş şəxsin ailə üzvlərindən birinin mənəvi zərərə görə kompensasiya aldığı halda, digər ailə üzvlərinin kompensasiya tələblərinin hansı qaydada həll edilməli olması məsələlərinə aydınlıq gətirilməsinin zəruri olduğu qeyd edilmişdir. Həmçinin Konstitusiyanın 29-cu maddəsinin VII hissəsinə istinad edilərək, ailə üzvünün ölümü ilə əlaqədar mənəvi zərərin ödənilməsini tələb etmək hüququnun vərəsəlik subyektləri ilə bağlılığının olub-olmasının müəyyənləşdirilməsi məsələsi də qaldırılmışdır.

Müraciətdə göstərilmişdir ki, Ə.Mirzəyeva həyat yoldaşı B.Mirzəyev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyinin (bundan sonra - "Azəriqaz" İB) Lənkəran Regional qaz istismarı idarəsinin Cəlilabad Xidmət Sahəsinin Təmir-Bərpa Xidmətində usta işləyən N.Həsənovun təqsiri üzündən 14 dekabr 2014-cü il tarixində evin hamam otağında qaz sızmasından yaranmış partlayış nəticəsində vəfat etdiyindən "Azəriqaz" İB-ə qarşı dəymiş mənəvi zərərə görə 900.000 manat məbləğin-

də pulun tutulması tələbinə dair iddia ərizəsi ilə məhkəməyə müraciət etmişdir.

İddia ərizəsi onunla əsaslandırılmışdır ki, cavabdehin işçisinin hüquqazidd əməli nəticəsində Ə.Mirzəyevanın ailə başçısını itirməsi, stress, narahatlıq, mənəvi sarsıntı keçirməsi səbəbindən ona maddi və mənəvi zərər dəydiyindən pul təzminatı ödənilməlidir.

Müraciətə əlavə edilmiş hökmün surətindən görünür ki, cinayət işi üzrə zərərçəkmiş şəxsin hüquqi varisi qismində mərhum B.Mirzəyevin birinci nikahdan olan oğlu N.Mirzəyev tanınmışdır. Onun "Azəriqaz" İB-ə qarşı mənəvi zərərin ödənilməsi tələbinə dair iddiası Bakı şəhəri Xətai Rayon Məhkəməsinin 26 sentyabr 2017-ci il tarixli qətnaməsi ilə qismən təmin edilərək "Azəriqaz" İB-dən 20.000 manat məbləğində pulun tutulması qət edilmiş və qətnamə qanuni qüvvəyə minmişdir.

Müraciətedən Mülki Məcəllədə mənəvi zərərin ödənilməsi əsaslarını müəyyən edən hüquq normasının olmaması və məhkəmələrdə belə mübahisələrin həlli zamanı qeyri-müəyyənliyin yarandığını nəzərə alaraq vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədi ilə qaldırılan məsələ üzrə müvafiq şərhin verilməsinin zəruriliyi qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətdə göstərilənlərlə bağlı aşağıdakıların qeyd olunmasını zəruri hesab edir.

Hüquqi dövlət üçün insan hüquq və azadlıqlarının layiqincə təmin edilməsi əsas göstərici amildir. Konstitusiyanın 12-ci maddəsi ilə insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi elan edilərək, hər kəsin həyat və sağlamlığının, şərəf və ləyaqətinin müdafiəsinə təminat verilir.

Konstitusiyanın 24-cü maddəsinə əsasən, insan ləyaqəti qorunur və ona hörmət edilir. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır. Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir. Hüquqlardan sui-istifadəyə yol verilmir.

Konstitusiyanın 26-cı maddəsinə görə, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir.

Konstitusiyanın 68-ci maddəsinin II hissəsi cinayət, habelə hakimiyyətdən sui-istifadə nəticəsində zərər çəkmiş şəxsin hüquqlarının qanunla qorunmasını bəyan edir və zərər çəkmiş şəxsin ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək və ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququnu müəyyən edir. Həmin maddənin IV hissəsində qeyd edilir ki, dövlət, dövlət qulluqçuları ilə birlikdə, dövlət qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyır.

Konstitusiyanın bu norması insan hüquq və azadlıqlarının pozulduğu təqdirdə zərərçəkmiş şəxsə dəymiş ziyana görə kompensasiyanın ödənilməsini ədalətli sayaraq bu öhdəliyin yerinə yetirilməsində dövlətin də məsuliyyətini müəyyən edir.

Mənəvi zərər insanın anadangəlmə və ya qanun əsasında ona mənsub olan şəxsi qeyri-əmlak xarakterli hüquq və azadlıqlarının, habelə əmlak hüquqlarının pozulması nəticəsində mənəvi sarsıntı və iztirab keçirməsini ifadə edir və yaxın şəxsin itirilməsi, fəal ictimai həyatın davam etdirilməsinin qeyri-mümkünlüyü, əmək qabiliyyətinin itirilməsi, ailə və şəxsi həyat sirrinin ictimailəşməsi, şərəf və ləyaqəti alçaldan məlumatların yayılması, müəyyən hüquq və azadlıqların qanunsuz məhdudlaşdırılması, fiziki əzab, sağlamlığa zərər vurulması və s. nəticəsində yarana bilər.

Mənəvi təzminat isə hüquqazidd əməl ilə zərərçəkənin mənəvi və ya fiziki bütövlüyünə edilən təcavüz nəticəsində meydana gələn ağrı və iztirabın, mənəvi sarsıntının unudulması, yaşama sevinci və arzusunun təkrar qazanılması, pozulan mənəvi tarazlığın yenidən bərpa edilməsi üçün bərabərləşdirmə vasitəsidir.

Mənəvi zərərin əvəzinin ödənilməsi tələbi maddi zərərin ödənilməsi tələbindən fərqləndirilməlidir. Maddi zərərin həcmi vurulmuş ziyanın həcmi ilə şərtlənsə də, mənəvi zərərin həcmi zərərçəkmiş şəxsin mülahizəsinə əsasən iddiada müəyyən edilir və məhkəmələr tərəfindən mənəvi zərərin həcmi (miqdarı) ədalətlilik və mütənasiblik meyarları baxımından qiymətləndirilməlidir.

Belə ki, Mülki Məcəllənin 21-ci maddəsinə müvafiq olaraq, zərərin əvəzinin ödənilməsini tələb etmək hüququna malik olan şəxs ona vurulmuş zərərin əvəzinin tam ödənilməsini tələb edə bilər, bu şərtlə ki, qanunda və ya müqavilədə zərərin əvəzinin daha az miqdarda ödənilməsi nəzərdə tutulmasın. Zərər dedikdə, hüququ pozulmuş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakından məhrum olması və ya əmlakının zədələnməsi (real zərər), habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlər (əldən çıxmış fayda) başa düşülür.

Həmin Məcəllənin 23-cü maddəsinə uyğun olaraq, fiziki şəxs onun şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən, şəxsi və ailə həyatının sirrini və ya şəxsi və ailə toxunulmazlığını pozan məlumatların məhkəmə qaydasında təkzib olunmasını tələb edə bilər, bu şərtlə ki, həmin məlumatları yaymış şəxs onların həqiqətə uyğun olduğunu sübuta yetirməsin. Faktiki məlumatlar natamam dərc edildikdə də, əgər bununla şəxsin şərəfinə, ləyaqətinə və ya işgüzar nüfuzuna toxunulursa, eyni qayda tətbiq edilir. Marağı olan şəxslərin tələbi ilə fiziki şəxsin şərəf və ləyaqətinin müdafiəsinə onun ölümündən sonra da yol verilir. Əgər fiziki şəxsin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu ləkələyən və ya şəxsi və ailə həyatının sirrinə qəsd edən məlumatlar kütləvi informasiya vasitələrində yayılmışdırsa, həmin kütləvi informasiya vasitələrində də təkzib edilməlidir. Əgər göstərilən məlumatlar rəsmi sənədə daxil edilmişdirsə, həmin sənəd dəyişdirilməli və bu barədə marağı olan şəxslərə məlumat verilməlidir. Digər hallarda təkzib qaydasını məhkəmə müəyyənləşdirir. Kütləvi informasiya vasitələrində hüquqlarına və ya qanunla qorunan mənafelərinə toxunan məlumatlar dərc edilmiş fiziki şəxsin həmin kütləvi informasiya vasitələrində öz cavabının dərc edilməsi hüququ vardır. Şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatlar yayılmış fiziki şəxsin həmin məlumatların təkzibi ilə yanaşı, onların yayılması nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır. Əgər fiziki şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatları yaymış şəxsi müəyyənləşdirmək mümkün deyildirsə, barəsində bu cür məlumatlar yayılmış şəxsin ixtiyarı var ki, həmin məlumatların həqiqətə uyğun olmayan məlumatlar sayılmasını tələb etsin. Bu maddənin fiziki şəxsin işgüzar nüfuzunun müdafiəsinə dair qaydaları müvafiq olaraq hüquqi şəxsin işgüzar nüfuzunun müdafiəsinə də tətbiq edilir.

Mülki Məcəllənin mülki hüquq pozuntusunun anlayışını müəyyən edən 1096-cı maddəsinə əsasən, mülki hüquq pozuntusu (delikt) hüquqla və ya qanunla müdafiə edilən başqa şəxsə (zərərçəkənə) birbaşa ziyan və ya zərər vurulmasına gətirib çıxaran təqsirli, hüquqa zidd (mülki qanunvericiliyin normalarını pozan) əməldir (hərəkət və ya hərəkətsizlikdir). Delikt törətmiş şəxs mülki hüquq məsuliyyəti daşıyır.

Mülki Məcəllənin 1097.1 və 1097.3-cü maddələrinə görə, mülki hüquq pozuntusu (delikt) nəticəsində fiziki şəxsin şəxsiyyətinə və ya əmlakına vurulmuş zərərin, habelə hüquqi şəxsin əmlakına və işgüzar nüfuzuna vurulmuş zərərin əvəzi zərərvuran tərəfindən tam həcmdə ödənilməlidir. Qanunla zərərin əvəzini ödəmək vəzifəsi zərəri vurmayan şəxsin öhdəsinə qoyula bilər. Qanunla zərərvuranın təqsiri olmadıqda da (obyektiv surətdə hüquqazidd əməl üçün) zərərin əvəzinin ödənilməsi nəzərdə tutula bilər.

Məcəllənin 1099-cu maddəsinə müvafiq olaraq, hüquqi və ya fiziki şəxs öz işçisinin törətdiyi mülki hüquq pozuntusu (delikt) üçün məsuliyyət daşıyır və əmək (qulluq, mənsəb) vəzifələrinin icrası zamanı işçisinin vurduğu zərərin əvəzini ödəməlidir. Bu Məcəllənin 59-cu fəslində nəzərdə tutulan qaydalara tətbiqən, işçi əmək müqaviləsi əsasında iş görən fiziki şəxsdir, habelə mülki hüquq müqaviləsi üzrə iş görən fiziki şəxsdir, bir şərtlə ki, bu zaman o, müvafiq hüquqi və ya fiziki şəxsin tapşırığı ilə və işlərin təhlükəsiz aparılmasına onun nəzarəti altında fəaliyyət göstərsin və ya fəaliyyət göstərməli olsun.

Göründüyü kimi, mülki qanunvericiliyin qeyd edilən normaları ilə hüquqazidd hərəkət nəticəsində vurulmuş zərərə görə mülki məsuliyyət müəyyən edilmişdir. Mülki Məcəllənin 21-ci maddəsi ilə isə hüquqazidd əməl nəticəsində

yaranan maddi zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ yaranırsa, həmin Məcəllənin 23-cü maddəsinə uyğun olaraq şəxs mənəvi zərərin ödənilməsini tələb edə bilər.

Qeyd edilməlidir ki, mülki qanunvericilikdə şəxsin ölümü və ya sağlamlığına zərər yetirilməsi ilə əlaqədar mənəvi zərərin ödənilməsi əsaslarını müəyyən edən konkret hüquq normasının nəzərdə tutulmaması bu barədə iddia tələbinin rədd edilməsi üçün əsas ola bilməz və belə tələb Mülki Məcəllənin 23-cü maddəsinə əsaslanmaqla mənəvi zərərin ödənilməsi qaydasında irəli sürülə bilər.

Mülki Məcəllənin 14-cü maddəsinə əsasən, mülki hüquqlar və vəzifələr mülki qanunvericilikdə nəzərdə tutulan əsaslardan, habelə fiziki və hüquqi şəxslərin qanunvericilikdə nəzərdə tutulmasa da, mülki qanunvericiliyin prinsiplərinə görə mülki hüquqlar və vəzifələr doğuran hərəkətlərindən əmələ gəlir. Başqa şəxsə zərər vurulması həmin maddə ilə hüquq və vəzifə doğuran əsas kimi nəzərdə tutulmuşdur (Mülki Məcəllənin 14.2.6-cı maddəsi). Bu hüquq normasındakı "qanunvericilikdə nəzərdə tutulmasa da" ifadəsi isə bilavasitə Məcəllə ilə nəzərdə tutulmayan hallarda belə mənəvi zərərin ödənilməsi ilə bağlı tələbin irəli sürülməsi üçün əsas yaradır.

Qeyd edilməlidir ki, qanunverici bəzi hallarda mənəvi ziyanın ödənilməsini xüsusi sahəvi qanunlarda nəzərdə tutur. Belə ki, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsi istehlakçıların bu Qanunda nəzərdə tutulan hüquqlarının istehsalçı (icraçı, satıcı) tərəfindən pozulduğu halda istehlakçıya dəyən mənəvi ziyanın günahkar tərəfindən ödənilməsini nəzərdə tutur. Ödənilən ziyanın dəyəri, qanunla başqa hal nəzərdə tutulmayıbsa, məhkəmə tərəfindən müəyyən edilir. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 28.6-cı maddəsinə uyğun olaraq, nikahın etibarsız sayılması nəticəsində, ər (arvad) ona vurulmuş maddi və ya mənəvi ziyanın mülki qanunvericiliklə nəzərdə tutulmuş qaydalar üzrə ödənilməsini tələb edə bilər. "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinə əsasən, turist turizm məhsulunun pərakəndə alqı-satqı müqaviləsi şərtlərinin turoperator və ya turagent tərəfindən yerinə yetirilmədiyi hallarda ona dəymiş maddi və mənəvi zərərlərin əvəzinin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada ödənilməsini tələb etmək hüququna malikdir. Lakin ictimai münasibətlərin çoxaspektliyi və zaman ilə bu münasibətlərin daha da mürəkkəbləşdiyi nəzərə alınarsa, mənəvi zərər yetirilə biləcək ictimai münasibətlərin dairəsinin və kompensasiyanın ödənilməsi əsaslarının qanunvericilik ilə tam əhatə olunması qeyri-mümkündür.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair" 2002-ci il 31 may tarixli Qərarında göstərilmişdir ki, mənəvi zərər adətən vətəndaşların şəxsi qeyri-əmlak hüquqlarının pozulması nəticəsində əmələ gəlir. Mənəvi zərər qeyri-əmlak zərəri olmaqla, iqtisadi məzmun və dəyər kəsb etməyən hüquq pozuntusudur. Belə zərər vətəndaşa anadangəlmə və ya qanun əsasında ona məxsus olan qeyri-maddi nemətlərə aid (şərəf, ləyaqət, işgüzar nüfuz, şəxsi ailə sirri, hərəkət etmək azadlığı, yaşayış yeri seçmə, ad hüququ, müəlliflik hüququ, sair şəxsi qeyri-əmlak hüquqlar və digər maddi nemətlər) hüquqlarını pozmaqla fiziki şəxsə mənəvi sarsıntı, iztirab verir. Mənəvi zərər bilavasitə zərər vuran şəxsin hərəkətlərindən sonra zərərçəkmişin şüuruna təsir göstərməklə mənfi psixoloji reaksiyaya səbəb olur. Mənəvi zərər fərdin hüquqlarının pozulmasının müstəqil nəticəsidir. O, həm vurulmuş əmlak zərəri ilə birlikdə, həm də əmlak zərəri vurulmadığı hallarda kompensasiya edilir.

Şəxsin yaxınlarının, o cümlədən ailə üzvlərinin ölməsi və ya sağlamlığına zərər vurulması halında mənəvi zərərə görə ödənilən təzminat şəxsin keçirdiyi sarsıntı və iztirabın müəyyən dərəcədə yumşaldılmasına, pozulan mənəvi tarazlığın bərpa edilməsinə yönəlmiş olur. Belə halda zərərçəkmiş şəxsi müəyyən miqdarda təzminat ilə təmin etməklə yaxınının itirilməsi nəticəsində keçirdiyi sarsıntı və iztirabın unutdurulması, yaşama sevincindəki azalma və mənəvi hüzursuzluğun aradan qaldırılması məqsədi ilə ona mənəvi cəhətdən dəstək olunmasına xidmət edilmiş olur.

Nəzərə alınmalıdır ki, mə-

nəvi təzminat tələbi vərəsəliklə əlaqəli deyil. Belə ki, mənəvi təzminat tələbi ilə çıxış edən iddiaçı ölən şəxsin vərəsəsi olsa da, onların ölümdən əvvəl emosional yaxınlığı olmadığı, iddiaçı şəxsin ölməsi ilə əlaqədar ağrı və kədər hissi və ya mənəvi sarsıntı keçirmədiyi təqdirdə onun mənəvi təzminat almaq tələbi də istisna edilir.

Mənəvi təzminatı tələb etmək hüququ olan şəxslərin dairəsinə gəlincə isə qeyd edilməlidir ki, bu hüquqa ölən və ya sağlamlığına zərər vurulan şəxsin yaxınları malik ola bilər. Şəxsin "yaxını" dedikdə onun məhz ailə hüququ çərçivəsində qohumu deyil, ölmüş və ya sağlamlığına zərər vurulmuş şəxslə xüsusi bağlılığı ilə səciyyələnən, səmimi münasibətinin və mənəvi yaxınlığının olduğu, həyatında mühüm yer tutan, uzun müddət birgə yaşadığı və birgə təsərrüfat apardığı, ölümündən və ya sağlamlığına vurulan zərər nəticəsində həyat şəraiti dəyişmiş, həqiqətən mənəvi sarsıntı, əzab və iztirab keçirmiş insan nəzərdə tutulur.

Məhkəmələr mənəvi zərərə görə təzminat müəyyən edərkən hər baxılan iş üzrə sosial, psixoloji və iqtisadi qiymətləndirməni mütənasiblik və ədalətlilik prinsipləri əsasında aparmalıdırlar.

Mənəvi təzminatın həcmi (miqdarı, məbləği) müəyyən edilərkən iddia irəli sürən insanla ölən və ya sağlamlığına zərər vurulmuş şəxs arasındakı şəfqət və mənəvi bağlılığının möhkəmliyi, keçirilmiş iztirabın və sarsıntının dərəcəsi, onların birlikdə və ya ayrı yaşamaları, ər-arvad olduqları təqdirdə, həmçinin evlilik həyatının müddəti və s. amillər nəzərə alınmalıdır.

Ana və atanın uşaqlarının, nənə və babanın nəvələrinin ölümü və ya sağlamlığına zərər vurulması səbəbi ilə mənəvi təzminat tələblərində zərərçəkmişin tək uşaq (nəvə) olması, valideynlərin yenidən uşaq dünyaya gətirəcək yaşda olub-olmamaları kimi amillər də diqqətə alınmalıdır. Uşaqların ana və atalarının ölümü və ya sağlamlığına zərər vurulması səbəbi ilə mənəvi təzminat tələblərində onların ata və analarına möhtac yaşda olmaları, fiziki və ya əqli məhdudiyyətli olmaları əsas götürülməlidir. Hüquqazidd hərəkətdən zərərçəkmiş qardaş və ya bacıların mənəvi təzminat tələbinə baxılarkən onlar arasında doğmalıq və sevgi hislərinin, mütəmadi və sıx ünsiyyətlərinin olub-olmaması kimi məqamlar nəzərdən keçirilməlidir.

Həmçinin qeyd etmək lazımdır ki, həqiqətən mənəvi sarsıntı keçirmiş hər bir şəxs keçirdiyi mənəvi iztirabın və zərərçəkmişlə yaxınlıq dərəcəsinə müvafiq olaraq digər iddiaçılarla birgə və ya ayrı-ayrılıqda təzminat almaq hüququna malikdir. Yəni bu halda təzminat hər bir iddiaçıya ayrı-ayrılıqda da müəyyən edilə bilər.

Əlavə olaraq qeyd edilməlidir ki, ölənin yaxınının mənəvi təzminat tələbi ailə başçısını itirməyə görə zərərin əvəzi tələbi ilə eyniləşdirilməməlidir. Belə ki, Mülki Məcəllənin 1121-ci maddəsi ilə tənzimlənən ailə başçısının ölümü nəticəsində zərər çəkmiş şəxslərə zərərin əvəzinin ödənilməsi məhz maddi zərərin qarşılanması məqsədli olub müvəqqəti əvəzləşdirici xarakter daşıyır. Həmin Məcəllənin 1122.1-ci maddəsinə əsasən, ailə başçısının itirilməsi ilə əlaqədar zərərin əvəzinin ödənilməsinə hüququ çatan şəxslərə zərərin əvəzi ölənin bu Məcəllənin 1119-cu maddəsinin qaydalarına əsasən müəyyənləşdirilmiş qazancının (gəlirinin) o hissəsi miqdarında ödənilir ki, həmin hissəni onlar ölənin sağlığında öz dolanacaqları üçün alırdılar və ya almaq hüququna malik idilər. Həmin şəxslərə ödənilən zərərin əvəzi müəyyənləşdirilərkən ölənin gəlirinin tərkibinə qazanc (gəlir) ilə yanaşı onun sağlığında aldığı pensiya və digər bu cür ödənclər də daxil edilir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (bundan sonra - Avropa Məhkəməsi) "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 41-ci maddəsinə, habelə digər normalarına əsaslanaraq mənəvi zərərin müəyyən edilməsinə dair müvafiq təcrübə formalaşdırmışdır.

Avropa Məhkəməsi mənəvi zərəri "nigarançılıq, ruhi sarsıntı və iztirab", "həyəcan, acizlik və sarsıntı", "məyusluq, ədalətsizlik hissi və uzunmüddətli qeyri-müəyyənlik" kimi səciyyələndirmişdir (Luluyev və digərləri Rusiyaya qarşı iş üzrə 2006-cı il 9 noyabr tarixli, Pelipenko Rusiyaya qarşı iş üzrə 2014-cü il 16 yanvar tarixli, Şiborş və Kuzmina Rusiyaya qarşı iş üzrə 2014-cü il 16 yanvar tarixli Qərarlar).

Avropa Məhkəməsi Varnava və digərləri Türkiyəyə qarşı iş üzrə 2009-cu il 18 sentyabr

tarixli Qərarında mənəvi zərəri şəxsin fiziki və ya psixoloji ağrı və əzabı, sıxıntı, narahatlıq, məyusluq, ədalətsizlik və ya alçalma hissi, uzun müddət davam edən qeyri-müəyyənlik, həyatın pozulması və ya real imkansızlıqdan əziyyət çəkən vəziyyəti kimi müəyyən etmiş və qeyd etmişdir ki, maddi zərərin müəyyən edilməsi zamanı məhkəmənin əsaslandığı obyektiv hallardan fərqli olaraq, mənəvi zərərin müəyyən edilməsində subyektiv və hissi ünsürlərə əsaslanaraq qərar qəbul edildiyindən məhkəmə təcrübəsi baxımından nəzərə alınmalı olan ümumi qiymətləndirmə meyarlarının müəyyən edilməsi vacibdir. Mənəvi zərər müəyyən edildikdə məhkəmələr tərəfindən hüquqazidd əməlin növü, dərəcəsi, şiddəti, davam etdiyi müddət nəzərə alınmalıdır. Bu zaman hüquqazidd hərəkətin hansı şəraitdə, mühitdə baş verməsinin müəyyən edilməsi də zəruridir.

Avropa Məhkəməsinin yuxarıda qeyd olunan Luluyev və digərləri Rusiyaya qarşı iş üzrə Qərarında, həmçinin göstərilmişdir ki, şəxslərin mənəvi iztirablarının dərəcəsinin müəyyən edilməsi üçün qohumluq əlaqələrinin yaxınlıq dərəcəsi, qohumluq münasibətlərinin spesifikası, qohumun hadisənin şahidi olub-olmaması və s. faktorların müəyyən edilməsi əhəmiyyət kəsb edir.

Avropa Məhkəməsi Maksimov Rusiyaya qarşı iş üzrə 2010-cu il 18 mart tarixli Qərarında qeyd etmişdir ki, kompensasiyanın hesablanması qaydası mürəkkəbdir. Fiziki və ya mənəvi iztirablara dair işlərə baxılarkən bu proses daha da çətinləşir. Ağrı və əzab, fiziki narahatlıq və əqli sıxıntı və iztirabın pul ilə ölçülə biləcəyi standart mövcud deyildir. Məhkəmələr dəymiş mənəvi zərərə görə ərizəçiyə təyin etdiyi kompensasiyanın həcmini qərarlarında kifayət qədər əsaslandırmalıdırlar. Əsaslandırmanın olmaması ərizəçiyə qeyri-mütənasib, az kompensasiyanın təyin edilməsi, pozuntunun adekvat və effektiv şəkildə aradan qaldırılması prinsipinə uyğun olmayaraq həll edilməsi ilə nəticələnə bilər.

"Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2008-ci il 3 noyabr tarixli qərarının 8-ci bəndinə əsasən, məhkəmə mənəvi zərərin ödənilməsi barədə tələblərə baxdıqda məsuliyyətin yaranması əsaslarını müəyyən etməklə bərabər zərərçəkənin mənəvi sarsıntı və iztirablara məruz qalmasının nədə ifadə olunmasını, bunların hansı şəraitdə və hansı hərəkət (hərəkətsizlik) nəticəsində baş verməsini, zərərvuran şəxsin təqsirini, zərərçəkən şəxsin hansı mənəvi sarsıntı və iztirablar keçirməsini, zərərçəkənin bunları hansı məbləğdə və sair maddi formada qiymətləndirməsini aydınlaşdırmağa borcludur.

Xüsusi risk qrupuna aid olan peşə sahibləri tərəfindən vurulmuş zərərə görə məsuliyyət məsələsi ilə bağlı vurğulanmalıdır ki, qeyd edilən şəxslər yalnız təqsirli şəkildə vurulan zərərə görə məsuliyyət daşıyırlar. Xüsusi risk qrupuna daxil olan peşə sahibi kimi həkimləri qeyd etmək olar. Həkim, tibb mərkəzi, xəstəxana və başqaları düzgün qoyulmayan diaqnoz, xətalı müalicə və müdaxilədən məsuliyyət daşıyırlar. Lakin edilən bütün prosedurlar tibb elminin ümumi qəbul olunan "tibbi standartlarına" uyğun xüsusi diqqət və lazımi tədbirlər çərçivəsində edildiyi halda vurulmuş zərərə görə məsuliyyət istisna edilir. Yəni tibbi müdaxilə zamanı əvvəlcədən gözlənilməyən, gözlənilsə də qarşısının alınması mümkün olmayan zərər həkimin və ya tibb müəssisəsinin biliyi, bacarığı və imkanları xaricində olan bir səbəbdən qaynaqlanan nəticədir. Bu mənada həkimin tibbi baxımdan qəbul etdiyi normal risk çərçivəsində hərəkət edərək lazımi diqqət və qayğı göstərməsinə baxmayaraq ortaya çıxan arzu olunmayan nəticədən qanuni olaraq məsuliyyət daşımayacağı qəbul edilir.

Beləliklə, mənəvi zərərin vurulmasının sübut edilməsinin kifayət qədər mürəkkəb olması mübahisəsizdir. Bu növ iddialarda şəxs maddi deyil, mənəvi aləmində, şüurunda baş vermiş mənfi halları, sarsıntını, yaşamaq eşqinin azalmasını və s. məhkəmə qarşısında sübut etməlidir.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, məhkəmədə mənəvi zərərlə bağlı işə baxılarkən zərərçəkmiş şəxsin mənəvi və fiziki iztirablar keçirməsi ilə əlaqədar zərərin hansı şəraitdə və hansı hərəkət (hərəkətsizlik) nəticəsində vurulması, zərər vuranın təqsirinin dərəcəsi və mübahisənin həlli üçün əhəmiyyət kəsb edən digər hallar ətraflı araşdırılaraq müəyyən

edilməlidir. Vurulmuş mənəvi zərərə görə təzminatın məbləğinin hesablanması zamanı məhkəmələr cavabdehin maddi durumunu nəzərə almalıdır. Həmçinin məhkəmələr tərəfindən nəzərə alınmalıdır ki, şəxsin ölümü və ya sağlamlığına vurulmuş zərər təkcə qohumlarının deyil, həm də onun dostlarının, tanışlarının da mənəvi sarsıntı, məyusluq hissləri keçirməsinə səbəb ola bilər. Lakin məhkəmələr hüquq pozuntusu nəticəsində yaranan mənəvi zərərə görə şəxsin məsuliyyətini müəyyən edərkən güclü emosional hisslərlə ağır mənəvi sarsıntı və iztirab hisslərini fərqləndirməlidirlər.

Bununla yanaşı Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, hüquqazidd hərəkətlər nəticəsində dəymiş mənəvi zərərin ödənilməsinin şərtləri və ölmüş və ya sağlamlığına zərər vurulmuş şəxsin bu zərərə görə təzminat almaq hüququ olan yaxınlarının dairəsi qanunvericilik qaydasında dəqiq müəyyənləşdirilə bilər.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- Mülki Məcəllənin 23-cü maddəsi şəxsin hüquqazidd hərəkətlər nəticəsində öldüyü və ya sağlamlığına zərər vurulduğu halda onun yaxınlarının, o cümlədən ailə üzvlərinin keçirdikləri mənəvi sarsıntı və iztiraba görə təzminat almaq hüququnu ehtiva edir;

- ölmüş və ya sağlamlığına zərər vurulmuş şəxsin yaxınları, o cümlədən ailə üzvləri keçirdikləri mənəvi sarsıntı və iztirabın dərəcəsinə, zərərçəkmiş şəxsə yaxınlıq dərəcəsinə və s. amillərə müvafiq olaraq birgə və ya ayrı-ayrılıqda təzminat almaq hüququna malikdirlər;

- ölmüş və ya sağlamlığına zərər vurulmuş şəxsin yaxınlarından, o cümlədən ailə üzvlərindən birinin mənəvi zərərə görə təzminat almış olduğu halda, digərlərinin təzminat tələbi bu Qərarın təsviri-əsaslandırıcı hissəsində göstərilən mütənasiblik və ədalətlilik meyarlarına uyğun olaraq işə baxan məhkəmə tərəfindən həll edilməlidir;

- məhkəmələr tərəfindən mənəvi zərərə görə təzminatın miqdarı müəyyən edilərkən hüquqazidd əməlin növü, dərəcəsi, davam etdiyi müddət, hansı şəraitdə, mühitdə baş verməsi və digər amillər nəzərə alınmalıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI :**

1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23-cü maddəsi şəxsin hüquqazidd hərəkətlər nəticəsində öldüyü və ya sağlamlığına zərər vurulduğu halda onun yaxınlarının, o cümlədən ailə üzvlərinin keçirdikləri mənəvi sarsıntı və iztiraba görə təzminat almaq hüququnu ehtiva edir.

2. Ölmüş və ya sağlamlığına zərər vurulmuş şəxsin yaxınları, o cümlədən ailə üzvləri keçirdikləri mənəvi sarsıntı və iztirabın dərəcəsinə, zərərçəkmiş şəxsə yaxınlıq dərəcəsinə və s. amillərə müvafiq olaraq birgə və ya ayrı-ayrılıqda təzminat almaq hüququna malikdirlər.

3. Ölmüş və ya sağlamlığına zərər vurulmuş şəxsin yaxınlarından, o cümlədən ailə üzvlərindən birinin mənəvi zərərə görə təzminat almış olduğu halda, digərlərinin təzminat tələbi bu Qərarın təsviri-əsaslandırıcı hissəsində göstərilən mütənasiblik və ədalətlilik meyarlarına uyğun olaraq işə baxan məhkəmə tərəfindən həll edilməlidir.

4. Məhkəmələr tərəfindən mənəvi zərərə görə təzminatın miqdarı müəyyən edilərkən hüquqazidd əməlin növü, dərəcəsi, davam etdiyi müddət, hansı şəraitdə, mühitdə baş verməsi və digər amillər nəzərə alınmalıdır.

5. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

6. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

7. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad Abdullayev**
*Bakı şəhəri, 24 aprel 2020-ci il*